Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!

*(Qurani-Kərim, ən-Nisa, 58)*

## Prezident qəhrəmanları təltif etdi

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif olunub. Vətən qarşısındakı xidmətlərinə görə təltif edilənlər arasında "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülənlər vardır.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (297) / APREL 2016-cı il


# Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib




Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, o cümlədən dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.

2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilib. Ötən ilin iyul ayında Prezident İlham Əliyev Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

"İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında keçirilən Foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb. Onların arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan da olub.

Dövlət və hökumət başçıları, Forumun digər yüksək səviyyəli iştirakçıları birgə foto çəkdiriblər.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib.

səh. 2

### Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə olub



səh. 5

## Dövlət Komitəsinin sədri Qəbələdə vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşları qəbulu davam edir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 29-da Qəbələ rayonunda Oğuz, Şəki və Qəbələ rayon sakinlərini qəbul edəcək. Qəbul Qəbələ şəhəri Mədəniyyət Mərkəzində saat 10:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

### Səyavuş Heydərov: Dünyada sülhün təminatında dini təhlükəsizlik problemi getdikcə artmaqdadır



səh. 11

### Qubada "Müstəqil Azərbaycan-25: multikulturalizm və tolerantlığa nümunə ölkə" mövzusunda konfrans təşkil olunub

səh. 7



### Səyyad Salahlı: "Dini tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir"

səh. 8



### "Dağılmış ibadət evlərimiz bərpa olunacaq"

səh. 12



### Dövlət Komitəsinin sədri İsveçdə səfərdə olub

səh. 6

### Bölgələrdə "Multikulturalizm ili" çərçivəsində tədbirlər keçirilib

səh. 9

### "QARA QIZIL"ın QƏLƏBƏsi



səh. 14

# Prezident İlham Əliyev: Azərbaycan Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür

## Prezident İlham Əliyevin BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışındakı nitqi:




-Zati-aliləri, prezidentlər.

Hörmətli dostlar, dəyərli qonaqlar.

İlk növbədə hamınızı ölkəmizdə salamlayıram, hər birinizi Azərbaycanda görməkdən məmnunluq duyuram. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmək bizim üçün böyük fəxrdir. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik.

İlk olaraq, Alyansın təsisçilərinə - Türkiyə və İspaniyaya, Prezident Ərdoğan və Baş nazir Sapateroya 10 ildən artıq davam edən və olduqca əhəmiyyətli təşəbbüsə görə minnətdarlığımı bildirirəm. Alyansın yaradılması fikri siyasətçilərin – qardaşım Prezident Ərdoğan və Baş nazir Sapateronun müdrikliyinin əlaməti idi və bu fikir beynəlxalq ictimaiyyət tərəfindən də dəstəkləndi.

Bununla yanaşı, mən BMT-nin Sivilizasiyalar Alyansındakı ali nümayəndəsi cənab Əl-Nasirə sülh, həmrəylik və dostluq dəyərlərinin təşviqi istiqamətində rəhbərliyi və töhfəsinə görə təşəkkürümü bildirmək istərdim.

Fərəhlənirik ki, bu gün 140-dan artıq ölkənin nümayəndəsi Sivilizasiyalar Alyansı ilə bağlı mühüm məsələlərin müzakirəsi üçün Bakıda toplaşıb. Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb.

Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda 743-cü ildə inşa edilmişdir.

Bununla yanaşı, ən qədim kilsələrdən biri - qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq bu sərvəti qoruyub saxlamışdır. Ölkəmiz yalnız 25 ildir ki, müstəqil dövlətdir. Lakin bu, qədim dövlətdir, dərin tarixi və mədəni köklərə malikdir.

Bizim üçün multikulturalizm dövlət siyasətidir. Biz bu vacib məsələlərin müzakirə edilməsi üçün müxtəlif tədbirlər təşkil edirik. Biz hər iki ildən bir Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunu təşkil edirik. Mütəmadi olaraq biz Bakı Beynəlxalq Humanitar Forumuna ev sahibliyi edirik. Burada da əsas məqsəd müxtəlif dinlərin nümayəndələrinin bir araya gətirilməsindən, aramızda daha mühüm qarşılıqlı anlaşmanın yaradılmasından ibarətdir.

Azərbaycan dinlərarası dialoq kimi vacib məsələyə həsr edilmiş Dünya Dini Liderlərinin zirvə toplantısına ev sahibliyi etmişdir. Hesab edirəm ki, bu mövzu bu gün dünyanın gündəliyində duran ən mühüm məsələlərdəndir və Sivilizasiyalar Alyansının rolu artmaqdadır. Əfsuslar olsun ki, biz, eyni zamanda, regionumuzda, Avropada, Yaxın Şərqdə, keçmiş Sovet İttifaqı ərazisində böyük narahatlıq doğuran meyillərin şahidi oluruq. Etnik və ya dini zəmində baş verən qarşıdurma və toqquşmalar çox təhlükəli meyillərdir.

Hesab edirəm ki, Bakıda keçirilən belə bir toplantı – VII Qlobal Forum bu məsələlərin müzakirəsinə həsr ediləcək və həmrəylik, sülh, qarşılıqlı anlaşma və tərəfdaşlıq işinə öz töhfəsini verəcəkdir.

2008-ci ildə biz "Bakı Prosesi"nin təşəbbüskarı olduq ki, bu da mədəniyyətlərarası dialoq üçün geniş bir platformaya çevrildi. Azərbaycan, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv olan yalnız bir neçə dövlətdən biridir. Beləliklə, 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakıda təşkil edilmiş toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərini dəvət etdik. Bu iki təşkilatı təmsil edən 100-dən artıq nazir ilk dəfə Bakıda bir araya gəldi.

Növbəti il, 2009-cu ildə biz İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət nazirlərini burada topladıq və Avropa dövlətlərinin mədəniyyət nazirlərini Bakıya dəvət etdik. Bu proses "Bakı Prosesi" adlandırıldı və biz fəxr edirik ki, bu müsbət təşəbbüs artıq bizim qədim şəhərimizlə bağlıdır. Bu proses inkişaf edir və getdikcə daha çox dəstəklənir. O, qlobal təşəbbüsə çevrilir, həmrəylik, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqa öz töhfəsini verir. Azərbaycanın coğrafi mövqeyi hər kəsə məlumdur, eyni zamanda, bizim təşəbbüslərimiz mədəniyyətlər və sivilizasiyalar arasında körpü kimi ölkəmizin mövqelərinin gücləndirilməsi məqsədini daşıyır. O ölkə ki, qarşılıqlı anlaşmaya daha çox töhfə vermək iqtidarındadır, bunu etməlidir.

Çox fəxr edirik ki, ötən il Bakı ilk Avropa Oyunlarına ev sahibliyi etdi. Gələn il isə biz Bakıda 4-cü İslam Həmrəylik Oyunlarını təşkil edəcəyik. Yəni, iki il içərisində Avropa və İslam dövlətlərinin idmançıları eyni şəhərdə oyunlarda iştirak etmiş olacaqlar. Məsələ yalnız idman və medalların sayı, nailiyyətlərlə bağlı deyil. Bu, dostluq, qarşılıqlı anlaşma, həmrəylik və tərəfdaşlıq deməkdir.

Bizim aramızda bölüşdürəcəyimiz heç nə yoxdur. Hamımız eyni planetdə yaşayırıq. Bütün xalqlar sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşamağı, ailələrini qorumağı, övladlarını böyütməyi arzulayır. Bütün dinlər eyni dəyərləri – insanlıq, mərhəmət, həmrəylik və sülhü təbliğ edir. Bu gün dünyanın tələb etdiyi səylərimizin birləşdirilməsidir. Bugünkü toplantı, bu Forum multikulturalizm ideyasının beynəlxalq ictimaiyyət tərəfindən güclü dəstəklənməsinin aydın göstəricisidir. Dediyim kimi, bu gün burada 140-dan artıq dövlətin nümayəndəsi iştirak edir.

Multikulturalizmin alternativi yoxdur. Əlbəttə, bizə məlumdur ki, bununla bağlı müxtəlif fikir və baxışlar var. Bəziləri multikulturalizmin iflasa uğradığını iddia edirlər, ancaq müsbət nümunələr var. Bizim üçün multikulturalizm dövlət siyasətidir və bizim həyat tərzimizdir.

Gəlin, alternativlərə nəzər salaq, onlar nədən ibarətdir? Bunlar çox təhlükəli alternativlərdir – ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik, diskriminasiya, nifrət. Bu səbəbdən multikulturalizm dəyərlərinin gücləndirilməsi hesab edirəm ki, müasir siyasətin çox müsbət meyli olacaqdır. Bütün məsuliyyətli siyasətçilər bu müsbət dinamikaya töhfələrini verməlidirlər.

Bildirdiyim kimi, Azərbaycan nisbətən gənc dövlətdir, bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər bizim siyasi və iqtisadi sisteminizin transformasiya illəri olmuşdur. Bu, dövlət quruculuğu illəri olmuşdur. Düşünürəm ki, bütün mühüm hədəflərimizə nail olmuşuq.

Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilmişdir. Azərbaycan BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və bir sıra digər beynəlxalq qurumların üzvüdür. Biz güclü beynəlxalq dəstəyə malikik. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi məhz bunun təzahürü oldu. Bu, ölkəmizin böyük qələbəsi və Azərbaycana böyük ehtiramın əlaməti oldu.

Olduqca qısa zamanda, 25 il içərisində biz özümüzü etibarlı beynəlxalq tərəfdaş, müstəqil xarici siyasətə malik, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən ölkə kimi təqdim etməyə müvəffəq olmuşuq. Müstəqillik illəri bizim siyasi sistemimizin transformasiyası, demokratik təsisatların yaradılması illəri olmuşdur. Biz buna nail olmuşuq, Azərbaycanda bütün azadlıqlar təmin edilir, o cümlədən media və internet azadlığı. Ölkə əhalisinin 70 faizdən çoxu internet istifadəçisidir. Toplaşma və din azadlığı, yəni, bütün azadlıqlar təmin edilir. Bu isə öz növbəsində sürətli iqtisadi inkişaf üçün yaxşı zəmin yaradır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılmışdır.

Təəssüflər olsun ki, dövlətçiliyimizin yaranması zamanı qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dominant amil olmuşdur. Həmin təcavüz ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsinin işğalı ilə nəticələnmişdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi parçasıdır, hüquqi baxımdan da bu, belədir. Azərbaycan BMT-yə üzv olarkən Dağlıq Qarabağ ölkəmizin tərkib hissəsi kimi qəbul edilmişdir.

Lakin həmin təcavüz nəticəsində Dağlıq Qarabağ Ermənistan tərəfindən tamamən işğal edilmişdir. Nəinki Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, Dağlıq Qarabağın ətrafında yerləşən digər yeddi rayonu da işğal altındadır. İşğal nəticəsində bizim 1 milyondan artıq qaçqın və məcburi köçkünümüz yaranıb. Ermənistan bizə qarşı etnik təmizləmə aparmışdır və ərazimizin 20 faizi 20 ildən artıqdır ki, işğal altındadır.

İşğal edilmiş ərazilərimizdə hər şey dağıdılmışdır. ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərmişdir və onlar dəhşətli hesabatlar təqdim etmişlər. Bütün tikililərimiz, tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız dağıdılmış vəziyyətdədir. Burada, Bakının mərkəzində, siz erməni xalqının dini mirasının tərəfimizdən necə qorunduğunun şahidi ola bilərsiniz. Erməni kilsəsi bərpa edilmiş və ilk gündən inşa edildiyi yerdə yerləşir. Lakin işğal edilmiş torpaqlarda bizim bütün məscidlərimiz viran edilmişdir.

Bu işğala son qoymaq üçün beynəlxalq ictimaiyyət müvafiq qətnamə və qərarlar qəbul etmişdir. Ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan sadəcə bu qətnamələrə məhəl qoymur və onlara əməl etmir.

Burada ən mühüm element beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrası mexanizmidir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində həyata keçirilir. Bizə gəldikdə isə, artıq 20 ildən çox keçir və münaqişə həll olunmamış qalır.

ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı da Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən bənzər qətnamə və qərarlar qəbul etmişlər. Ermənistan isə bunlara məhəl qoymur və işğalçını beynəlxalq hüququn normalarına əməl etməyə məcbur edəcək beynəlxalq təzyiq isə göstərilmir.

Xalqımıza qarşı soyqırımı həyata keçirilmişdir. Xocalı soyqırımı artıq 10 dövlət tərəfindən tanınmışdır. Həmin soyqırımı

⇨ 3

# Prezident İlham Əliyev: Azərbaycan Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür

⇦2 nəticəsində iki yüzü qadın və uşaq olmaqla, yüzlərlə azərbaycanlı - mülki şəxslər qətlə yetirilmişdir. Bu, insanlığa qarşı törədilmiş cinayətdir və bir daha bizim hansı təhlükəyə məruz qaldığımızı nümayiş etdirir.

Ermənistan ilə Azərbaycan arasındakı münaqişə beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı əsasında həll edilməlidir. Ərazilərimiz azad edilməlidir, insanlarımız evlərinə geri dönmək imkanına malik olmalıdır.

1990-cı illərin əvvəlində biz böyük humanitar fəlakətlə üzləşdik. Çünki 250 min azərbaycanlı Ermənistandan qovulmuş, daha 700 mindən çox məcburi köçkün isə Dağlıq Qarabağ və digər bölgələrdən idi. O zaman Azərbaycanın əhalisinin 8 milyondan az olduğunu nəzərə alsaq, adambaşına düşən qaçqın və məcburi köçkün sayına görə Azərbaycan çox güman ki, dünyada birinci yer tuturdu.

Biz bilirik ki, onların yerləşdirilməsi, zəruri şəraitin yaradılması nə dərəcədə çətin məsələdir. O vaxt biz tamamilə maliyyə vəsaitindən məhrum vəziyyətdə, dünyanın ən yoxsul, yaşayış səviyyəsinin yoxsulluqdan aşağı olduğu ölkələrindən biri idik. Əlbəttə, o zaman bizə müəyyən beynəlxalq dəstək göstərilirdi, lakin əsasən biz bu məsələnin öhdəsindən özümüz gəldik.

Bu günə qədər 90-dan artıq qəsəbə inşa etməyimizə və hər il 20 min qaçqın və köçkünü yerləşdirməyimizə baxmayaraq, onların bəziləri hələ də çətin şəraitdə - yataqxana, məktəb və uşaq bağçalarında yaşayır. Biz onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün əlimizdən gələni edirik, lakin bu, uzun zaman tələb edir.

Yəni, bu gün biz bəzi ölkələrin qaçqınlarla bağlı üzləşdiyi vəziyyəti aydın şəkildə anlayırıq. Bu, həqiqətən də humanitar fəlakətdir və bütün beynəlxalq ictimaiyyət bu məsələlərin həllində iştirak etməlidir. Ən çox qaçqın qəbul etmiş ölkələr hazırda dəstəklənməlidir – yalnız sözlə deyil, ciddi maliyyə yardımları ilə. Bir daha qeyd etmək istəyirəm ki, işğaldan əziyyət çəkməkdə davam edən ölkə kimi bunların nə dərəcədə çətin olduğu bizə yaxşı məlumdur. Hər bir nöqteyi-nəzərdən – siyasi, mənəvi, iqtisadi və sosial baxımdan.

İşğala baxmayaraq, ölkəmiz inkişaf edir. Biz onillik ərzində - 2004-2014-cü illərdə dünyada ən yüksək iqtisadi artım göstəricilərinə malik olmuşuq. Biz yoxsulluğu kəskin şəkildə, 50 faizdən təqribən 5 faizə endirə bilmişik. İşsizliyin səviyyəsi də 5 faizə yaxındır. Biz təhsilə sərmayə yatırırıq. Azərbaycanda savadlılığın səviyyəsi 100 faizə yaxındır. Son illər ərzində 3 mindən artıq yeni məktəb tikilib və ya bərpa edilib. Ölkə ərazisində 500-dən artıq xəstəxana inşa edilib. Bu isə uşaq ölümlərinin kəskin şəkildə azaldılmasına yardım etdi.

Azərbaycanda gender bərabərliyi tam olaraq müdafiə edilir. Əslində, Azərbaycanda qadınlar təqribən 100 ildir ki, yəni, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründən səsvermə hüququna malikdir. Yeri gəlmişkən, həmin respublika müsəlman dünyasının ilk demokratik respublikası olmuşdur.

Biz ətraf mühitin qorunmasına sərmayə yatırırıq. Burada, Abşeron yarımadasında neft hasilatı səbəbindən çirklənmiş geniş ərazilər mövcud idi və biz bu əraziləri təmizləməli olduq. Yerində isə parklar və ictimai yerlər yaratdıq. Başqa sözlə desək, biz BMT-nin Minilliyin İnkişaf Məqsədləri ilə bağlı çox vacib irəliləyiş əldə edirik və düzgün yoldayıq.

Hətta bu gün, neftin qiymətində kəskin ucuzlaşma baş verdiyi və bütün neft istehsalçısı olan dövlətlərin iqtisadi böhranla üzləşdiyi bir vaxtda bu, bizim iqtisadiyyatımıza ciddi təsir göstərməmişdir və mən əminəm ki, biz 2016-cı ildə bütün əsas məqsədlərimizə nail olacağıq.

Azərbaycan enerji resursları ilə zəngin ölkə kimi tanınır. Ancaq bizim əsas məqsədimiz "qara qızıl"ın, yəni, neftin insan kapitalına çevrilməsidir. Bu səbəbdən, təhsil sahəsinə sərmayələrin qoyuluşu, sosial müdafiənin gücləndirilməsi və islahatlar elə bir vəziyyət yaradıb ki, iqtisadiyyatımız şaxələndirilib və neftdən asılılıq azalmaqdadır.

Bununla yanaşı, biz irimiqyaslı enerji layihəsinin – "Cənub Qaz Dəhlizi"nin təşəbbüskarı olmuşuq. Bu, enerji əməkdaşlığı və enerji təhlükəsizliyi layihəsidir. Eyni zamanda, biz coğrafi mövqeyimizi nəzərə alaraq nəqliyyat dəhlizlərinin təşviqi ilə məşğul olan ölkələrdən ibarət heyətin fəal üzvüyük. Ölkələrin sayına nəzər salsaq, hansı regional əməkdaşlıqdan söhbət getdiyi aydın görünər. İcazənizlə, mən onların adlarını sadalamaq istərdim. Bu enerji və nəqliyyat dəhlizləri yalnız enerji və yüklərin daşınması demək deyil. Bu, əməkdaşlıq dəhlizləridir. "Cənub Qaz Dəhlizi" layihəsinin üzvləri Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Əminəm ki, sonrakı mərhələdə Balkan ölkələri də layihəyə qoşulacaq.

Şərq-Qərb dəhlizi – İpək Yolu layihəsi üç dövlət - Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən irəli sürülmüşdür. Bu gün o, genişlənməkdədir, Mərkəzi Asiya və Çini, Türkiyədən isə Avropa istiqamətini əhatə edir. Bu, yeni İpək Yolu olacaqdır. Şimal-Cənub dəhlizi də Azərbaycanın fəal iştirak etdiyi layihədir. Bu layihə Şimali Avropa ölkələrini, Rusiya, Azərbaycan, İran, Pakistan və Hindistanı əhatə edir.

Bu layihələr tərəfdaşlıq layihələridir. Çünki bütün bu dövlətlər bir-biri ilə bağlı olur. Əgər siz bir-birinizlə bağlı, bir-birinizə arxayın vəziyyətdəsinizsə, o zaman daha çox proqnozlaşdıra bilmə, təhlükəsizlik və əməkdaşlıq olur.

Enerji təhlükəsizliyi və nəqliyyat kimi iqtisadi maraqlar, çətinliklərin öhdəsindən gələrək xalqlarımıza daha yaxşı şərait yaratmaq kimi dəyərlərin paylaşılması və bütün bunların təməlində birgə dəyərlərimiz olan dini dözümlülük, qarşılıqlı anlaşma və multikulturalizm əsasında qurulmuş beynəlxalq əməkdaşlıq formatları hesab edirəm ki, region xalqlarının həyatını daha da yaxşılaşdıracaq.

Bir daha bu vacib tədbirdə bu gün bizimlə olduqlarına görə bütün qonaqlarımıza minnətdarlığımı bildirir, Forumun işinə uğurlar arzulayıram.

* * *

Daha sonra çıxış edən BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir bu Forumu qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Azərbaycan Prezidentinin bu məsələ ilə bağlı liderliyini xüsusi qeyd edən Əl-Nasir bildirib ki, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi dünya xalqları arasında münasibətlərin möhkəmləndirilməsi yolunda mühüm addımdır. Ona görə də Bakı bu tədbirin keçirilməsi üçün ən münasib yerdir. Sivilizasiyalar Alyansının builki mövzusunun "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd"ə həsr olunduğunu deyən Əl-Nasir bunun BMT-nin 2030-cu ilədək olan davamlı inkişaf məqsədlərinə uyğun gəldiyini vurğulayıb. Qeyd edib ki, hazırda zorakı ekstremizmin aradan qaldırılması, dünyada zorakılıq hallarının azaldılması qarşıda duran vacib məsələlərdən biridir və bu missiyanın həyata keçirilməsində gənclərin dəstəyindən, onların fəaliyyətindən istifadə olunmalıdır.

BMT-nin baş katibi Pan Gi Mun videomüraciətində Bakıda bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq edib. Hazırda dünyanın və insanların ciddi böhranlar dövrü yaşadığını deyən baş katib ayrı-seçkiliyin və təcridolunmanın yalnız ekstremist arzuların yayılmasına xidmət etdiyini söyləyib və bu problemlərin həllində bütün cəmiyyətləri birgə səy göstərməyə çağırıb. Budəfəki Forumun mövzusunun BMT-nin 2030-cu ilədək elan etdiyi məqsədlərə uyğun olduğunu deyən Pan Gi Mun diqqəti bütün münaqişələrin sülh yolu ilə həllinin vacibliyinə cəlb edib. O, müraciətində Sivilizasiyalar Alyansının işini təqdir edib və bütün dünyada etimadın artırılması yolunda çalışmağın zəruriliyini vurğulayıb.

İspaniyanın xarici işlər naziri Xose Manuel Qarsia Marqallo göstərilən qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Bakının böyük İpək Yolu üzərində yerləşməklə əsrlər boyu ideyalar mübadiləsi və ticarət mərkəzi rolunu oynadığını deyən nazir bu baxımdan Azərbaycan paytaxtını bütün dövrlərin informasiya mərkəzi kimi xarakterizə edib və bu səbəbdən budəfəki Forumun burada təşkilinin təbii olduğunu söyləyib. "Sivilizasiyaların müxtəlifliyi və çoxmədəniyyətlilik insan üçün danılmaz gücdür", - deyən İspaniya xarici siyasət idarəsinin rəhbəri terrorizm, ksenofobiya, zorakı ekstremizm kimi təhdidlərin qarşısının alınması ilə bağlı daha geniş tədbirlərin görülməsinin vacibliyini vurğulayıb. O da VII Qlobal Forumun qarşıda duran məqsədlərə nail olmağa böyük dəstək verəcəyinə əminliyini ifadə edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə Bakıya gəlməkdən məmnun olduğunu deyərək bu Forumun 2016-cı ilin "Multikulturalizm ili" elan edilən Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunub. Hazırda Sivilizasiyalar Alyansının BMT-nin ən önəmli qurumlarından birinə çevrildiyini deyən Türkiyə Prezidenti Alyansın məqsədlərinə nail olunması istiqamətində görülən işlərin hələ də yetərli olmadığını bildirib. Qeyd edib ki, dünyanın müxtəlif yerlərində baş verən qanlı toqquşmalar və terror aktları hələ də bizə çox işləməyin vacibliyini xatırladır. O, dünyada İslam dininə qarşı yönələn yanlış fikirlərin və təhdidlərin yolverilməz olduğunu, terror təşkilatlarını İslamla əlaqələndirməyin qətiyyən doğru olmadığını diqqətə çatdırıb. Rəcəb Tayyib Ərdoğan deyib ki, bütün təhdidlərin qarşısı ancaq ortaq mübarizə sayəsində alına bilər və terrora qarşı qlobal mübarizə günümüzün ən vacib məsələlərindən biridir.

Türkiyə dövlətinin başçısı çıxışının sonunda Forumun işinə uğurlar arzulayıb.

Forum işini plenar və bölmə iclasları, BMT-nin Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli toplantısı ilə davam etdirib.



**Forumun aprelin 27-də keçirilən yekun sessiyasında BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali Nümayəndəsi Nasir Əbdüləziz Əl-Naser və Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış etdilər.**

BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun yüksək səviyyəli nazirlər iclasının Bakı Bəyannaməsi qəbul edildi. Bəyannamədə Alyansın 7-ci Qlobal Forumunun "İnkluziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" adı altında keçirilməsinə ev sahibliyi etməsi, müasir dövrdə cəmiyyətlərdə artan müxtəlifliyin fonunda inklusiv birgəyaşayışa qarşı artan təhdidlərin qarşının alınması və irəliləyişin müəyyən edilməsi nöqteyi-nəzərindən müxtəlif dairələrin fərqli baxışlarının bir araya gətirilməsi, Bakı Prosesi və 2016-cı ilin ölkəmizdə multikulturalizm ili elan edilməsi baxımdan Azərbaycanın rolu təqdir edildi.

# Multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu

**Aprelin 27-də BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində "Multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu" mövzusunda bölmə iclası keçirilib.**

İclasın moderatoru Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru, professor Azad Məmmədov dövlətimiz tərəfindən əsrlər boyu sülhlə harmoniya şəklində uzunmüddətli multietnik mədəni müxtəliflik qorunaraq saxlanılıb. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində multikulturalizm Azərbaycanda mühüm prioritetlərdən birinə çevrilib. Multikultural cəmiyyətimiz bizim əsas üstünlüklərimizdən biridir. Biz bunları dəyərləndirir və qoruyuruq. Prezident İlham Əliyev multikultural cəmiyyət modelini yeni dəyərlərlə zənginləşdirir. Eyni zamanda, Heydər Əliyev Fondu tolerantlıq və multikulturalizm ənənələrinin davam etdirilməsində çox böyük işlər görür. Fond bu istiqamətdə uğurlu layihələr həyata keçirir. Multikulturalizmi ölkəmizin sərhədlərindən kənarda təbliğ edir.

Sosial və Siyasi Elmlər İnstitutunun Avropa Elmləri şöbəsinin müdiri Aleksandr Nesterov multikulturalizmin insanlar tərəfindən qavranılan dəyərlərdən ibarət bir sistem olduğunu vurğulayaraq müxtəlif ölkələrdə mədəniyyətlərin səviyyəsini müəyyənləşdirmək üçün identikliyin mühüm rol oynadığını bildirib. O, multikultural cəmiyyətin yaradılmasında ailənin, təhsilin, tolerantlığın rolunu, Azərbaycanda hökm sürən multikultural mühiti yüksək qiymətləndirib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə reallaşan yay və qış məktəblərinin avropalı tələbələr üçün böyük təcrübə olduğunu deyib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İtaliya filialının direktoru Sandro Teti, Drezden filialının icraçı direktoru Birgit Veissgerber, Lusofona Sosial Elmlər və Texnologiya Universitetinin beynəlxalq əlaqələr fakültəsinin direktoru Teresa Damasio çıxışlarında Azərbaycandakı multikultural ənənələri və bunların qorunması istiqamətində indiyədək görülən işlərin əhəmiyyətini xüsusi vurğulayıblar. Onlar xalqların mədəni köklərinin, multikultural dəyərlərinin qədim ədəbi-tarixi mənbələrdə axtarmaq işinə diqqət yetirilməsinin vacibliyini bildiriblər. Onlar ölkəmizdə həyata keçirilən beynəlxalq yay və qış məktəbinin fəaliyyətini yüksək qiymətləndiriblər. Bu məktəblərin əcnəbi tələbələrin Azərbaycanın multikultural



ənənələri ilə yaxından tanış olmaları üçün əvəzsiz fürsət olduğunu deyiblər.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev bildirib ki, bölmə iclasında iştirak edən qonaqlar Azərbaycan multikulturalizminin örnəklərini və dəyərlərini gənclərə, müxtəlif cəmiyyətlərin üzvlərinə yayan səxavətli insanlardır. Kamal Abdullayev vurğulayıb ki, Azərbaycan multikulturalistləri artıq tək deyillər. Onların yanında sədaqətli dostları toplaşır və bu cür formalaşma prosesi bizi daha da ruhlandırır.

Dövlət müşaviri multikulturalizmin hazırda Azərbaycanda dövlət siyasətinə çevrildiyini xüsusi vurğulayıb. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında həmişə multikulturalizmin Azərbaycanın çox qiymətli sərvəti olduğunu vurğulayır. Bu gün Azərbaycan multikulturalizmi yalnız ölkəmizə işləmir. O vurğulayıb ki, Azərbaycan multikulturalizmini bərpa edilmiş məscidlərimizdə, sinaqoqlarımızda, kilsələrimizdə görürük. Azərbaycan multikulturalizmi öz əhəmiyyətini Vatikan katakombalarının, Fransa muzeylərinin bərpasında, Pakistanda məktəblərin tikilməsində göstərir. Bu işdə Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrin böyük əhəmiyyəti var.

Kamal Abduallayev qeyd edib ki, Azərbaycanda məzhəb ayrılığı deyilən bir məsələ yoxdur. Bu gün Azərbaycanda vahid dövlət siyasəti var. Multikulturalizmə əsaslanan bu siyasət həm millətlərin, həm də dini icmaların problemlərini həll etməyə yönəlib.

Litvanın Təhsil Elmləri Universitetinin professoru Vidas Kavaliauskas əməkdaşı olduğu ali məktəbin tələbələrinin Azərbaycan multikulturalizmi ilə çox yaxından tanış olduqlarını deyib. Bildirib ki, tələbələr Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Xalqlar, dinlər arasında ədavətin aradan qaldırılması, birgə, mehriban yaşama prinsipinin təbliği və aşılanması baxımından Azərbaycan multikulturalizmi dünya ictimaiyyətinə örnək ola biləcək səviyyədədir. Azərbaycan bir çox xalqların yaşadığı məkandır. Bura İslam, xristian, yəhudi mədəniyyətinin birgə mövcud olduğu məkandır. O, həmçinin ölkəsindəki multikultural mühit haqqında da danışıb.

Multikultural cəmiyyətlərində tolerantlığın diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini bildirən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Moskva filialının icraçı direktoru Natalia Krasovskaya Azərbaycanın təcrübəsinin bu baxımdan örnək olduğunu deyib. Qeyd edib ki, BMT-nin qarşıya qoyduğu əsas məqsədlərə çatmaqda Azərbaycanın multikulturalizm modeli digər dövlətlər tərəfindən də tətbiq oluna bilər. Belə bir modelin digər regionlarda tətbiqi yalnız müsbət nəticələr verəcək.

İclas işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

# Dini rəhbərlər və zorakı ekstremizm: qabaqlayıcı tədbirlərlə bağlı çətinliklər

**Aprelin 26-da BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində "Dini rəhbərlər və zorakı ekstremizm: qabaqlayıcı tədbirlərlə bağlı çətinliklər" mövzusunda bölmə iclası keçirilib.**

İclasın moderatoru Sülh Naminə Dinlərin Dünya Konfransının baş katibi Villiam F.Vendli Forumun əhəmiyyətini və burada müzakirə olunan məsələlərin vacibliyini qeyd edib. O bildirib ki, iclasın əsas məqsədi ekstremizmin qarşısının alınması üçün atılacaq addımların müəyyən edilməsidir. Villiam F.Vendli dini icmaların öz səylərini birləşdirərək dini ekstremizmlə mübarizə aparmalarının əhəmiyyətini vurğulayıb.

Villiam F.Vendli bildirib ki, Forumda bir çox dini icma rəhbərləri bir araya gələrək dini ekstremizmlə mübarizə yollarının tapılmasında səylər göstərirlər. Müvafiq çətinlikdən çıxmaq üçün bərpaedici tədbirlər araşdırılır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə bugünkü Forumun dünyada sülhün və əmin-amanlığın, multikulturalizmin, mədəniyyətlər və sivilizasiyalar arasında əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Şeyxülislam bildirib ki, dünyanın siyasi, iqtisadi və dini zəmində narahat gündəm yaşadığı bir




dövrdə BMT-nin Sivilizasiyalar Alyansının növbəti Forumunun Bakıda keçirilməsi əlamətdar hadisədir. Çünki tarixən çoxmillətli və çoxkonfessiyalı bir ölkə, milli, dini tolerantlıq və multikultural ənənələr diyarı olan Azərbaycanda sülh məramının və qarşılıqlı ehtiram məfkurəsinin bəşəriyyətə bəyan edilməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb. Azərbaycan torpaqlarında müsəlmanlarla yanaşı, pravoslavlar, katoliklər, yəhudilər və digər etiqad sahibləri əsrlər boyu dinc yanaşı, bir ailə kimi yaşayır, ibadət və mərasimlərini sərbəst şəkildə icra edirlər. Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam etdirir. Biz hesab edirik ki, müasir dövrdə milli və dini zəmində baş verən münaqişələrə qarşı ənənəvi dinlərin sülh, ədalət, mənəvi-əxlaqi prinsipləri ilə yanaşı, Azərbaycanın uğurlu birgəyaşayış modelindən istifadə etmək məqsədə müvafiq olardı.

Azərbaycanda daxili sabitliyin mövcud olduğunu deyən Allahşükür Paşazadə burada siyasi iradənin böyük önəm daşıdığını söyləyib. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Din-dövlət münasibətlərinin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuşdur və hazırda yüksək səviyyədə davam və inkişaf etdirilir. Prezident İlham Əliyev dünya miqyasında multikulturalizm ideyasının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair Bakı Prosesinin müəllifidir. Prezident İlham Əliyev 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinin təşəbbüskarıdır. Bakı artıq mədəniyyətlərarası, dinlərarası dialoqa dair mötəbər beynəlxalq tədbirlərin, o cümlədən Dünya Dini Liderlərinin Sammitinin keçirildiyi ənənəvi məkana çevrilib. Tolerantlıq ənənələrimizin, mədəni-mənəvi irsimizin təbliğində Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır.

Azərbaycanda müxtəlif dini mənsubiyyətə malik vətəndaşlar dövlətin diqqətini, maddi və mənəvi qayğısını, himayəsini eyni dərəcədə hiss edirlər. Məscid, kilsə, sinaqoq və digər dini məbədlər dövlətimizin dəstəyi ilə təmir və bərpa olunur, yeniləri inşa edilir. Dövlətimizin başçısı müxtəlif dini ibadətgahları bayram və mərasimlər zamanı ziyarət edir, dini icmaların istək və arzularına qayğı ilə yanaşır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri diqqətə çatdırıb ki, ekstremizm təzahürlərini önləyə biləcək multikultural həyat tərzini Azərbaycan dövləti bir daha qloballaşan dünyaya təqdim edib.

İran Qadın Həmrəylik Assosiasiyasının baş katibi Fatimə Haşemi Rəfsəncani zorakılığa qarşı mübarizədə dünyada hər kəsin səfərbər olmasının vacibliyini qeyd edib.

Dini ekstremizmlə mübarizədə medianın rolundan danışan Fatimə Haşemi Rəfsəncani deyib ki, onlar bu baxımdan insanların biliklərinin artırılmasında üstünlüyə malikdir. Qeyd edilib ki, din insanlar arasında zorakılığa gətirib çıxarmamalıdır.

Abuja Baş yepiskopu Kardinal Con Onaiyekan birgə yaşayışın müasir dünyamızın reallığı olduğunu söyləyib.

Zorakı dini ekstremizmə qarşı mübarizənin vacibliyindən söz açan Kardinal Con Onaiyekan bütün cəmiyyətlərin bu sahədə olan şüur səviyyəsinin artırılmasının əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, hər kəsin seçiminə hörmətlə yanaşılmalıdır. İnsanlar azad şəkildə seçimlərini etməlidirlər.

Forumun mövzusunun önəmini qeyd edən Al-Azhari Universitetinin professoru Kamal Boraiqa Abdelsalam ekstremizmlə mübarizədə dini liderlərin ata biləcəyi praktiki addımlar haqqında danışıb. O, zorakı hallarla mübarizə üçün görülən işlərdən söz açaraq qeyd edib ki, din xadimləri bu sahədə öz məsuliyyətlərini hiss etməlidirlər.

Sonra Azərbaycanda fəaliyyət göstərən müxtəlif dini qurumların rəhbərləri çıxış edərək ölkəmizdə tolerantlıq sahəsində görülən işləri yüksək qiymətləndiriblər. Onlar qeyd ediblər ki, Azərbaycan müxtəlif dinlərə mənsub insanların yaşaya biləcəyi ən gözəl ölkədir. Ona görə ki, burada yaşayan azsaylı xalqlar Azərbaycanın tamhüquqlu vətəndaşlarıdır və bu, heç bir ölkədə yoxdur. İstər sünnülərin, istərsə də şiələrin bir yerdə vəhdət namazı qılmaları Azərbaycanın tolerant ölkə olduğunu bir daha təsdiq edir.

İclas işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

## Dövlət Komitəsində görüşlər



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 6-da "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının nümayəndələri Mariyano Maciyas Quzman və Antoni Breysi qəbul edib.***

Mübariz Qurbanlı bildirib ki, ölkədə vətəndaşların dini etiqad azadlığı tam təmin olunub. Azərbaycanda zərərli dini ideyalar yaymayan, dinlərarası münasibətlərə xələl gətirəcək formada fəaliyyət göstərməyən bütün dini konfessiyaların fəaliyyətinə şərait yaradılıb.

Assosiasiyanın fəaliyyəti ilə bağlı məlumat verən qonaqlar səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürlərini bildiriblər.

* * *

***Dini Qurumlara İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 20-də Türkiyə Böyük Millət Məclisinin hakim Ədalət və İnkişaf Partiyasından olan sabiq millət vəkili, professor İrfan Gündüzlə görüşüb.***



Mübariz Qurbanlı iki dövlət arasında müxtəlif sahələrdə, xüsusilə din sahəsində mövcud olan yüksək səviyyəli münasibətlərdən danışıb. Dövlət Komitəsinin sədri kimi ilk səfərini Türkiyəyə etdiyini xatırladan Mübariz Qurbanlı Komitənin fəaliyyəti barədə qonağa geniş məlumat verib. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev hər zaman dinə həssas yanaşıb, yeni məscidlərin tikintisinə və tarixi-dini abidələrin bərpasına böyük diqqət ayırıb. Bu gün də Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinin dövlətin bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir.

Azərbaycanın iqtisadi inkişafından və ölkəmizdəki dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edən qonaq səfər çərçivəsində "Multikulturalizm ili" ilə bağlı Bakı və Zaqatalada keçiriləcək konfranslarda iştirak edəcəyini və gənclər üçün mühazirələr oxuyacağını deyib.

* * *

***Aprelin 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qafqaz Universitetinin rektoru, professor Əhməd Saniçi qəbul edib.***



Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəşri olan "Heydər Əliyev siyasəti: Tolerantlıq" kitabının Qafqaz Universiteti tərəfindən türk dilində çapa hazırlanması ilə bağlı fikir mübadiləsi aparılıb. Eyni zamanda, Dövlət Komitəsi ilə Qafqaz Universiteti arasında dini radikalizmə qarşı mübarizə və dini maarifləndirmənin aparılması ilə bağlı birgə tədbirlərin keçirilməsi məsələləri müzakirə edilib.

Qafqaz Universiteti rektoru, professor Əhməd Saniç səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə olub

***Aprelin 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) cari ilin yanvar-mart aylarının yekunlarına həsr olunmuş müşavirə keçirilib. Müşavirədə Dövlət Komitəsinin Mərkəzi Aparatının şöbələri ilə yanaşı, bölgə şöbə müdirləri də iştirak ediblər.***

Tədbirdə əvvəlcə cəbhənin təmas xəttində gedən döyüşlərdə şəhid olmuş hərbçilərimizin, mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tədbiri giriş sözü ilə açaraq bildirib ki, son günlər Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin təxribatları nəticəsində qoşunların təmas xəttində gərginlik yaranıb. Bu təxribatların qarşısının alınması məqsədilə silahlı qüvvələrimizin komandanlığı tərəfindən həyata keçirilən cavab tədbirləri nəticəsində ordumuz əhəmiyyətli irəliləyiş əldə edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev baş verənlərlə əlaqədar Təhlükəsizlik Şurasının iclasında ölkəmizin müdafiəsinin və əzəli torpaqlarını işğaldan azad etməsinin xalqımızın haqqı olduğunu qeyd edib və buna etinasız yanaşan düşmənin layiqli cavab alacağını bildirib.

Mübariz Qurbanlı qeyd edib ki, hazırda davam edən müharibə şəraitində Dövlət Komitəsinin bölgə şöbələri öz fəaliyyətlərini yaranmış şəraitə uyğun qurmalıdırlar. Komitə sədri Azərbaycan əleyhinə ermənilərin güclü təbliğat apardıqlarını, yalan informasiyalar yaydıqlarını vurğulayıb. Bu məlumatlar bölgələrdə bizim əleyhimizə istifadə oluna bilər. Ona görə də belə məsələlərə yüksək həssaslıqla yanaşmaq lazımdır. Daha sonra müşavirədə cari ilin yanvar-mart aylarında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən yerlərdə dini radikalizmə qarşı keçirilən maarifləndirmə tədbirləri müzakirə edilib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov 3 ay ərzində bölgələrdə dini radikalizmlə mübarizə mövzusunda keçirilən tədbirlər haqqında geniş məlumat verib. O deyib ki, radikalizm ideyalarının yayılmasına qarşı Dövlət Komitəsi tərəfindən həyata keçirilən maarifləndirmə tədbirləri öz bəhrəsini verməkdədir. Davamlı olaraq respublikamızın bütün şəhər və rayonlarında milli-mənəvi və dini dəyərlərimizin, həmçinin Azərbaycanın tolerantlıq ənənələrinin təbliği və təşviqi üçün çox böyük işlər görülür.

Daha sonra müşavirədə bölgə şöbə müdirlərinin yanvar-mart ayı üzrə hesabatları dinlənilib. Hesabatlarda bölgələrdə mövcud dini durum, həyata keçirilən dini maarifçilik işləri, eləcə də dini radikalizmlə mübarizə tədbirləri barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, yerlərdəki dini icma sədrləri son günlər cəbhə xəttində baş verən hadisələri diqqət mərkəzində saxlayır, ordumuzun ruh yüksəkliyini və yüksək döyüş əzmkarlığını müsbət qarşılayırlar.

Cari məsələlərin müzakirəsindən sonra Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək maarifləndirmə məqsədilə keçirilən silsilə tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb. Bu cür tədbirlərin keçirilməsinin milli-mənəvi dəyərlərin təbliğini gücləndirdiyini, eyni zamanda radikal qruplara qarşı ideoloji sədd yaratmış olduğunu bildirən Komitə sədri müvafiq tapşırıq və tövsiyələrini verib.



# Yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib

Aprelin 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş 24 dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil edilmiş toplantıda Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərindən danışaraq bildirib ki, ölkəmizdə dövlətin dinə, o cümlədən dini icmalara diqqət və qayğısı ardıcıl həyata keçirilir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi dövlət-din münasibətlərində də müstəqilliyimizə, milli-mental dəyərlərimizə, dinimizə uyğun qaydaların təsbit olunduğunu vurğulayan Komitə sədri dini icmaların Azərbaycan cəmiyyətində özünəməxsus yeri və rolundan danışıb. Prezidentimiz İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində hazırda çox mühüm uğurlar əldə edilib.

Dövlət başçısının ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərilməsi ilə bağlı 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bölgələrdə davamlı olaraq tədbirlər keçirildiyini vurğulayan Mübariz Qurbanlı qeydiyyatdan yeni keçən dini icmaları İslam dəyərlərini ictimaiyyətə düzgün çatdırmağa səsləyib.

Eyni zamanda, Komitə sədri dini icma sədrlərinə məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağı, rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrini, ümummilli maraqlardan çıxış etmələrini tövsiyə edib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeydiyyat şəhadətnamələrini dini icma sədrlərinə təqdim edib.

# Dövlət Komitəsinin sədri İsveçdə səfərdə olub





Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti İsveçdə yerləşən "Beynəlxalq Həyat Sözü" Təşkilatının dəvəti ilə aprelin 11-dən 14-dək bu ölkədə rəsmi səfərdə olub.

Səfər çərçivəsində Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Stokholm və Uppsala şəhərlərində bir sıra görüşlər keçirib. Belə görüşlərdən biri Stokholmda fəaliyyət göstərən Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunda baş tutub.

Görüşdə institutun direktoru Svante Kornel, İsveç Parlamentinin keçmiş üzvü, ATƏT-in Parlament Assambleyasının sabiq prezidenti Qoran Lenmarker, Stokholm Türkiyə Araşdırmaları İnstitutunun rəhbəri Paul Levin, habelə İsveçin Müdafiə Tədqiqatları Mərkəzi, İsveç İnkişafa Yardım Agentliyi, Malmo Universiteti və İsveç Beynəlxalq Liberal Mərkəzinin təmsilçiləri iştirak ediblər.

Xalqımızın müstəqillik uğrunda apardığı mübarizədən, Azərbaycanın keçdiyi tarixi yoldan və bugünkü iqtisadi inkişafından danışan Komitə sədri ölkəmizdə uğurla aparılan multikulturalizm və tolerantlıq siyasətinə də toxunub.

Aprel ayının 2-dən başlayaraq Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən toqquşmalara diqqəti yönəldən Mübariz Qurbanlı əslində bu hadisələrin Ermənistanın uzun illər davam edən işğalçılıq siyasətinin tərkib hissəsi olduğunu bildirib. Münaqişənin tarixinə nəzər salan Komitə sədri qeyd edib ki, Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş ərazilərdə 1 milyondan artıq azərbaycanlı öz ev-eşiyini itirib. Hazırda həmin ərazilərdə Azərbaycana məxsus bütün mədəni abidələr, eləcə də təbii sərvətlər ermənilər tərəfindən amansızcasına talan edilir.



Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı 4 qətnamənin qəbul olunduğunu və bu qətnamələrin hər birində erməni silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmalarının tələb edildiyini xatırladan Mübariz Qurbanlı deyib ki, Ermənistan bu qətnamələrə məhəl qoymur, işğalçılıq siyasətini bu gün də davam etdirir.

Sonda isə Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımından, ölkəmizdə dini tolerantlıqdan bəhs edən kitablar İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutuna hədiyyə olunub.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın İsveçdəki səfirliyində aparıcı diaspor təşkilatlarımızın rəhbərləri və nümayəndələri ilə də görüşüb.

Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov Mübariz Qurbanlının İsveçə səfəri və keçirdiyi görüşlər haqqında məlumat verərək, bu səfərin ölkəmizdəki tolerant, multikultural mühitin və dövlətin din sahəsindəki siyasətinin təbliği baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. Sonra səfir İsveçdəki Azərbaycan diasporunun fəaliyyəti haqqında danışıb.

Mübariz Qurbanlı görüşdə çıxış edərək Azərbaycanda dövlət-din münasibətləri və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı geniş məlumat verib. Xarici ölkələrdə yaşayan azərbaycanlıların dövlətimizin başçısının daim diqqət mərkəzində olduğunu nəzərə çatdıran M.Qurbanlı diasporun daha fəal olması, siyasi baxışlarından asılı olmayaraq xaricdəki azərbaycanlıların azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsi üçün dövlətimizin lazım olan bütün dəstəyi verdiyini və bundan sonra da verəcəyini bildirib.

Azərbaycanın İsveçdəki diasporunun nümayəndələri Azərbaycan və azərbaycançılıq naminə bundan sonra da fəal mübarizə aparacaqlarını, lazım gələrsə Vətəni əllərində silahla da müdafiə etməyə hazır olduqlarını bildiriblər. Qeyd ediblər ki, Prezident İlham Əliyevin siyasəti Azərbaycandan kənarda yaşayan həmvətənlərimiz tərəfindən müdafiə olunur.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İsveçə səfəri çərçivəsində Uppsala şəhərində "Beynəlxalq Həyat Sözü" təşkilatının rəhbəri Kristian Akerhielm, habelə "Həyat Sözü" Kilsəsinin rəhbərliyi və icma üzvləri ilə görüşüb.

Görüşdə təşkilatın rəhbəri icmanın fəaliyyəti, beynəlxalq əlaqələri, gördüyü işlər haqqında məlumat verib. O qeyd edib ki, kilsə 1983-cü ildən fəaliyyət göstərir və təkcə Skandinaviya ölkələri deyil, bütün dünya üçün mərkəz rolunu oynayır.



Azərbaycanın ənənəvi multikultural və tolerant dəyərlərindən bəhs edən Mübariz Qurbanlı bildirib ki, burada tarixən müxtəlif xalqlar və dinlərə mənsub insanlar qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində birgə yaşayıblar.

Sonra Dövlət Komitəsinin sədri kilsənin sosial işlər üzrə mütəxəssisləri, qaçqınlar üzrə məsul şəxsləri Eva Mobek və Yane Blum ilə görüşüb. Mübariz Qurbanlı kilsə ərazisində olan qaçqın düşərgəsinə gedərək Suriyadan olan qaçqın türkmənlərin yaşayış şəraiti ilə yaxından maraqlanıb.

Dövlət Komitəsinin sədri Uppsala şəhərindəki məscidi ziyarət edərək müsəlman icmasının nümayəndələri ilə də görüşüb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İsveç Krallığı parlamentinin (Riksdaq) Xristian Demokratlar Partiyasından olan deputatı Mikael Oskarsson və Xristian Demokratlar Partiyasının lideri Ebba Busç Thor ilə də görüşüb.

Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov da görüşdə iştirak edib.

Qonaqları Riksdaqda salamlayan Mikael Oskarsson İsveç parlamentinin tarixindən danışıb, üzvü olduğu müdafiə məsələləri komitəsinin fəaliyyəti haqqında məlumat verib.

Mübariz Qurbanlı İsveçin Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdiyini və paylaşıla biləcək ortaq dəyərlərin çox olduğunu diqqətə çatdırıb.

Komitə sədri Azərbaycanın Şərqlə Qərbi birləşdirən körpü kimi regionun siyasətində oynadığı rol, ölkənin iqtisadi inkişafı və Avropanın enerji təhlükəsizliyində əhəmiyyəti ilə bağlı məlumat verib. Ermənistanın işğalçılıq siyasəti barədə danışaraq bu siyasətin təkcə Azərbaycanın deyil, bütövlükdə regionun inkişafına mənfi təsir etdiyini, xalqlar arasında inamsızlığın və nifrətin dərinləşməsinə səbəb olduğunu qeyd edən Mübariz Qurbanlı erməni işğalına son qoyulması üçün İsveçin siyasi elitasını və bütövlükdə İsveç cəmiyyətini fəal olmağa, beynəlxalq hüquqa, ədalətə dəstək verməyə çağırıb.

Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycanın multikulturalizm siyasəti ilə bağlı hazırlanan kitablar Mikael Oskarssona təqdim edilib.



# Qubada "Müstəqil Azərbaycan-25: multikulturalizm və tolerantlığa nümunə ölkə" mövzusunda konfrans keçirilib




Azərbaycanda hökm sürən etnik və dini tolerantlıq dünyaya nümunədir. Ölkəmizdə istər dini, istərsə də milli və irqi ayrı-seçkilik yoxdur. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərin təmsilçiləri arasında bir-birinə tolerant yanaşma mövcuddur.

Bu fikirlər aprelin 21-də Quba şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, "Azərbaycan" qəzeti və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müstəqil Azərbaycan – 25: multikulturalizm və tolerantlığa nümunə ölkə" mövzusunda keçirilən konfransda vurğulanıb.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin Quba şəhərində ucaldılan abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüb. Azərbaycanın müstəqillik yolunda qət etdiyi çətin və şərəfli yolundan danışan natiq millətlərarası münasibətlərin tənzimlənməsində, xalqlar arasında dostluğun və birgəyaşayışın qorunub saxlanmasında multikultural dəyərlərin və tolerantlığın əhəmiyyətini diqqətə çatdırıb. Bildirilib ki, ölkəmizdə multikulturalizm və tolerantlıq dövlət siyasəti səviyyəsinə qaldırılıb və bu, Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətidir. Prezident İlham Əliyevin uğurla davam etdirdiyi bu siyasət ölkəmizdə hökm sürən siyasi sabitliyin, əmin-amanlığın, qarşılıqlı etimadın, xalqlar dostluğunun etibarlı qarantıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda "Multikulturalizm və tolerantlığın Azərbaycan modeli" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, bu gün tolerantlığın Azərbaycan modeli dünya üçün nümunə sayılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir, İslam həmrəyliyinin gücləndirilməsi və dini dəyərlərin müdafiəsi üçün beynəlxalq miqyasda işlər görülür. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi, 2017-ci ildə Azərbaycanda keçirilməsi nəzərdə tutulan İslam Həmrəylik Oyunlarının təşkili bu uğurlu siyasətin bariz nümunəsidir.

Komitə sədri bildirib ki, multikulturalizm sahəsində həyata keçirilən dövlət siyasəti əsrlərdən bəri toplanmış böyük tarixi təcrübəyə əsaslanır və bu istiqamətdə qazanılmış uğurların dünya miqyasında təbliğinin gücləndirilməsi zərurəti yaranıb. Azərbaycanda multikulturalizmin həyat tərzinə çevrildiyini beynəlxalq aləmdə nümayiş etdirmək dünyada humanizmin bərqərar olmasına, dini ayrı-seçkiliyin, məzhəblərarası qarşıdurmanın dayandırılmasına böyük töhfə olardı.

Konfransda "Azərbaycanda tolerantlıq ənənələri Qubanın timsalında" mövzusunda məruzə də dinlənilib, Qafqaz Müsəlmanları İdarəsinin, Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icmasının nümayəndələri və ziyalılar mövzu ətrafında çıxışlar ediblər.



# 15 saylı cəzaçəkmə müəssisəsində "Dini radikalizm və onun fəsadları" mövzusunda tədbir təşkil edilib

Aprelin 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Penitensiar Xidmətin birgə təşkilatçılığı ilə 15 saylı cəzaçəkmə müəssisəsində "Dini radikalizm və onun fəsadları" mövzusunda tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan Penitensiar Xidmətin "Cəmiyyət və cəza" jurnalının baş redaktoru, ədliyyə polkovniki Mehman Sadıqov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Penitensiar Xidmət arasında əməkdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. O bildirib ki, bu cür tədbirlər məhbusların cəzadan azad olunduqdan sonra sosial adaptasiyasına şərait yaradılması, eyni zamanda dini radikalizm təhlükəsindən uzaq olmaları məqsədilə keçirilir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam dininin yaranma tarixi, inkişafı, Azərbaycanda İslamın yayılması ilə bağlı ətraflı çıxış edib. Bildirib ki, Azərbaycanda əhalinin mütləq əksəriyyətinin İslam dininin daşıyıcıları olmasına baxmayaraq, dövlətimiz tərəfindən bütün dinlərə, konfessiyalara eyni şərait yaradılıb. Mübariz Qurbanlı ölkəmizdə dövlətdin münasibətlərinin yüksək səviyyədə olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı daha da sürətlənib. Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması üçün misilsiz xidmətlər göstərdiyini vurğulayan Komitə sədri hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Diqqətə çatdırılıb ki, indi Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur. Ölkəmizdə müxtəlif dinlərin nümayəndələri dinc, yanaşı, azad şəraitdə yaşayırlar.

Dövlət Komitəsinin dini maarifləndirmə məqsədi ilə müxtəlif tədbirlər, konfranslar və seminarlar təşkil etdiyini bildirən Mübariz Qurbanlı, bu işlərin əhalinin dinlə bağlı bilgilərinin sürətlə artırılmasına xidmət etdiyini vurğulayıb.

Komitə sədri dini radikalizmin yaranması səbəblərindən, onun yaratdığı fəsadlardan, ölkəmizdə dini radikalizmə qarşı aparılan mübarizədən danışıb. O qeyd edib ki, ölkəmizdə vicdan azadlığı ilə bağlı hüquqlar bərpa olunub, məscidlərlə yanaşı, kilsə və sinaqoqların fəaliyyətinə rəsmən icazə verilib, ölkə Konstitusiyasında bütün dini etiqadların qanun qarşısında bərabər olduğu göstərilib, insan şəxsiyyətinə və insanlıq prinsiplərinə zidd dini baxışlar qadağan edilib.

Məhbuslar arasında maarifləndirici işlərin aparılmasının onların radikal dini cərəyanların fəaliyyətinə meyil etməməsinə müsbət təsir göstərdiyini deyən Mübariz Qurbanlı qeyd edib ki, dini nifrətin salınması, milli ləyaqətin alçaldılması, dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına yönələn hərəkətlərin törədilməsinə qanunlarımız yol vermir. Komitə sədri Azərbaycanda dini radikalizmə qarşı mübarizənin qanun çərçivəsində aparıldığını və bu mübarizədə ən effektiv vasitənin maarifləndirmə işi olduğunu vurğulayıb.

Aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin bölmələrinin təxribatları nəticəsində qoşunların təmas xəttində yaranan gərginlikdən danışan Komitə sədri vurğulayıb ki, ordumuz bizim qürur mənbəyimizdir. Son hadisələr bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən vaxt torpaqlarımızı hərb yolu ilə geri qaytara bilər. Azərbaycanın hər bir vətəndaşı bilməlidir ki, bizim döyüş yerimiz, cihad meydanımız Qarabağdır.

Tədbirin sonunda məhbusları maraqlandıran suallar cavablandırılıb.

Daha sonra Mübariz Qurbanlı məhbusların ibadət otaqları ilə yaxından tanış olub və müəssisənin kitabxanasına DQİDK-nın nəşri olan kitablar hədiyyə olunub.

Görüşdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Penitensiar Xidmətin Tərbiyə işinin təşkili İdarəsinin rəis müavini, ədliyyə polkovnik-leytenantı İntiqam Əliyev iştirak ediblər.

# "Dini tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, filologiya üzrə fəlsəfə doktoru Səyyad Salahlının "İki sahil" qəzetinə müsahibəsi**



**- Səyyad müəllim, əvvəlcə Azərbaycanda dini qurumlarla işin təşkilində və tolerantlıq siyasətinin həyata keçirilməsində təmsil etdiyiniz Komitənin rolu barədə fikirlərinizi öyrənmək istərdik?**

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən tolerantlığın ölkəmizdə daha da təkmilləşməsi və müxtəlif dini konfessiya rəhbərləri arasında qarşılıqlı əlaqələrin inkişafı istiqamətində bir sıra addımlar atılmışdır. Xüsusilə Dövlət Komitəsinin sədri yanında yaradılmış Məşvərət Şurasını qeyd etmək istərdim. Bu Şurada Azərbaycanda fəaliyyət göstərən ənənəvi konfessiyalar - müsəlmanlar, pravoslavlar, yəhudilər, katoliklər rəhbərlik səviyyəsində təmsil olunurlar. Məşvərət Şurasının əsas məqsədi dini etiqad azadlığının təmin olunmasında mövcud məsələlərin müzakirəsi, onların həlli ilə bağlı tövsiyələrin hazırlanması və dinlərarası dialoqun səmərəli təşkilidir. Şuranın vəzifə və funksiyalarına dini konfessiya nümayəndələrinin arasında anlaşma və qarşılıqlı hörmət hissinin gücləndirilməsi, dindarlar arasında radikal, ekstremist meyillərin, o cümlədən dini duruma mənfi təsirlərin, həmçinin mövhumat və xurafat elementlərinin aradan qaldırılması istiqamətində iş aparılması, dövlət-din münasibətlərinin qarşılıqlı etimad əsasında inkişaf etdirilməsi istiqamətində dini qurumların iştirakı ilə tədbirlərin görülməsi və s. bu kimi məsələlər aiddir.

Bundan əlavə, 2014-cü ilin dekabr ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin yanında Dinşünaslıq üzrə Komissiya yaradılmışdır ki, buraya islam dini üzrə mütəxəssislərlə yanaşı, xristian və yəhudi dinlərinə mənsub ekspertlər cəlb olunmuşlar. Bütün bunlar ölkədə müxtəlif konfessiyalar arasındakı tolerantlığın qorunub saxlanması istiqamətində atılmış addımlardır.

Həmçinin tolerantlığın təbliği istiqamətində müxtəlif nəşrlər, o cümlədən "Heydər Əliyev siyasəti: Tolerantlıq", "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir", "Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz" və s. kitablar işıq üzü görmüşdür.

Cənab Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bu günə kimi Dövlət Komitəsi tərəfindən 116 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 97-i isə İslam dini icmasıdır.

Dövlət Komitəsi digər dövlət qurumları ilə də qarşılıqlı əməkdaşlıq şəraitində maarifləndirmə tədbirlərini gücləndirmişdir. Ötən müddət ərzində Dövlət Komitəsi dini icmalarla əlaqələrin səmərəliliyinin artırılması, din xadimlərinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Qafqaz Müsəlmanları İdarəsi ilə əməkdaşlıq çərçivəsində bir sıra maarifləndirmə tədbirləri təşkil etmişdir. Eyni zamanda, Dövlət Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq edir, müxtəlif dini mövzularda birgə tədbirlər təşkil olunur.

**- Ötən il Nardaranda baş verən hadisələrə münasibətiniz və bir daha belə arzuolunmaz halların təkrarlanmaması üçün hansı işlərin görülməsini zəruri hesab edirsiniz?**

- Nardaranda yaşanan acı təcrübənin gələcəkdə təkrarlanmaması üçün şübhəsiz ki, maarifləndirmə işi aparılmalı, o cümlədən buradakı gənclərə vətənpərvərlik hissləri aşılanmalı, milli-mənəvi dəyərlərimiz təbliğ edilməli, belə zonalarda mövcud olan əsas sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində tədbirlər görülməlidir. Hazırda dövlətimiz Nardarandakı problemlərin aradan qaldırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir. Nardaran artıq yeni simaya bürünməkdədir. İnanırıq ki, görülən işlər burada öz müsbət nəticəsini verəcəkdir.

**- Azərbaycanda və xaricdə dini abidələrin qorunması istiqamətində görülən işlər barədə nə deyərdiniz?**

- Ulu Öndərin dövlət-din münasibətləri sahəsində əsasını qoyduğu bu siyasətin onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir və bir çox dövlətlərin üzərində baş sındırdığı "Dünyəvi dövlətdə din siyasəti necə olmalıdır" sualının əyani cavabı kimi qəbul olunur. Ölkə başçısı son dövrlərdə milli-mənəvi dəyərlərin dirçəldilməsinə, o cümlədən yeni dini məbədlərin inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır. Dövlət başçısının sərəncamları ilə son illər tarixi dini abidələr, ziyarətgahlar bərpa edilmiş, dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər həyata keçirilmişdir. Məhz Prezident İlham Əliyevin ölkəmizdəki tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi istiqamətində atdığı addımlar Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirmişdir.

Son illər Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Təzəpir, Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilərək dindarların istifadəsinə verilmişdir. Görülən bu işlərin davamı olaraq, 2014-cü ilin dekabr ayında özündə Azərbaycanın milli-dini ənənələrə sadiqliyini əks etdirən əzəmətli Heydər məscidinin açılışı olmuşdur. Bu il fevralın 17-də Gəncədə "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra böyük açılış mərasimi keçirilmişdir. Onu da qeyd etməliyik ki, ölkəmizdə 2 mindən artıq məscid mövcuddur. Təkcə son 11 il ərzində 140-a yaxın məscid tikilmiş, 80 məscid əsaslı şəkildə bərpa edilmişdir.

Bu istiqamətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusi vurğulanmalıdır. Məhz Fondun maliyyə dəstəyi ilə Daşkəsəndəki Cümə məscidində, Xəzər rayonunun Binə qəsəbəsindəki Möhsin Səlim və İmam Rza məscidlərində, Mərdəkan qəsəbəsindəki Pirhəsən ziyarətgahı və Heydər məscidində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidlərində yenidənqurma və əsaslı təmir-bərpa işləri aparılmışdır.

Fondun gördüyü işlər təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur. Heydər Əliyev Fondunun hər bir layihəsi xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına xidmət göstərir. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi bu istiqamətdə görülmüş mütərəqqi işlərdəndir. Layihə çərçivəsində ölkədəki məscid, kilsə, sinaqoqlarda təmir-bərpa işləri aparılmışdır. Bundan başqa, Bakıda yəhudi uşaqları üçün təhsil kompleksinin istifadəyə verilməsi, Fransada bir sıra kilsələrin, müqəddəs Roma katakombalarının bərpasında iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

**- Heydər məscidində Vəhdət namazının qılınmasını necə qiymətləndirirsiniz?**

-Təbii ki, bu, çox təqdirəlayiq haldır. Dünyada tolerant və multikultural dəyərlərə malik bir ölkə kimi qəbul edilən Azərbaycanda tarixən sünni və şiə məzhəblərinin daşıyıcıları arasında mehriban münasibətlər mövcud olub və heç bir ciddi problem, məzhəblərarası mübahisələr yaşanmamışdır. Allahı bir, Müqəddəs Kitabı bir, dini bir olan dindarların xırda təfərrüatları bir tərəfə buraxaraq bir yerdə ibadət etmələri təbii və gözləniləndir. Müsəlmanların müqəddəs kitabı olan Qurani-Kərimdə də Uca Yaradan möminləri "firqələrə parçalanmamağa", "Allahın möhkəm ipindən yapışaraq ayrılığa düşməməyə" səsləyir (Ali-İmran surəsi - 103, Rum surəsi - 32). Bu, həm də dövlətimizin apardığı təriqətlərüstü siyasətin bir ifadəsidir.

## İsmayıllıda "Milli-mənəvi dəyərlərin təbliğində dindarların rolu" mövzusunda tədbir keçirilib



Aprelin 24-də İsmayıllı şəhər "Cümə" məscidində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində dindarların rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə İsmayıllı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Murad Məhərrəmov, QMİ-nin səlahiyyətli nümayəndəsi, İsmayıllı şəhər "Cümə" məscidinin imamı Şahzadə Bilalov, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin əməkdaşı Tural İbrahimov, İsmayıllı şəhər "Cümə" məscidi dini icmasının sədri Vasif Teymurov, habelə rayon ərazisində fəaliyyət göstərən dini icma rəhbərləri, imam və axundlar, dini ayinlərin icraçıları iştirak ediblər. Tədbir iştirakçıları İslam dininin insanlığa aşıladığı əsl mahiyyəti, milli-mənəvi dəyərlərimiz və ənənəvi dindarlığın əhəmiyyəti, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi, xüsusilə də ölkəmizdə mövcud olan tolerantlıq və İslam həmrəyliyi mövzularında çıxışlar ediblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Səyyad Salahlı: Xalqımızın tarixi ənənələrindən irəli gələn multikulturalizm milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir

*Ağsuda və Göyçayda "Multikulturalizm: dini ayrı-seçkiliyə və radikalizmə alternativ kimi" mövzusunda seminar-treninq keçirilib*





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi ilə bağlı Sərəncamından irəli gələn vəzifələrin icrası, həmçinin Azərbaycan xalqının zəngin multikultural və tolerantlıq ənənələrinin təbliği, eyni zamanda dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər təşkil edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə aprelin 19-da "Multikulturalizm: dini ayrı-seçkiliyə və radikalizmə alternativ kimi" mövzusunda seminar-treninq keçirilib. Tədbirin əvvəlində işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Göyçay Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İkram Vəliyev, Göyçay RİH başçısının müavini – ictimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rəxşəndə Rəcəbova, DQİDK-nın məsul işçiləri, din xadimləri, dini icma sədrləri, ziyalılar, ağsaqqallar, dindarlar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Göyçay RİH başçısının müavini – ictimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rəxşəndə Rəcəbova bildirib ki, Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir. Ümummilli Lider Heydər Əliyevin ardıcıl, məqsədyönlü fəaliyyəti sayəsində ölkəmizdə dini etiqad azadlığı ilə bağlı hüquqi-normativ aktların icrasının təmin olunmasına nəzarət edilməsi, konfessiyalar arasında dözümlülük ənənəsinin möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyat keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək bildirib ki, Multikulturalizm Azərbaycan xalqının tarixi ənənələrindən irəli gəlməklə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi, multukulturalizm xalqımızın həyat tərzidir. Lakin heç bir halda Azərbaycan dövləti hər hansı bölücü və radikal qrupların xalqımızın tolerant dəyərlərindən istifadə etməsinə imkan verməyəcəkdir. Bu gün ölkəmizdə vicdan azadlığı təmin edilmişdir və bu 25 ildir müstəqil olan bir ölkə üçün böyük bir nailiyyətdir.

Səyyad Salahlı Azərbaycanda multikultural həyat tərzinin real nümunələrindən bəhs edib və multikulturalizmin radikalizmin qarşısının alınmasında mühüm vasitə olduğunu bildirib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və Ağsu Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə aprelin 20-də "Multikulturalizm: dini ayrı-seçkiliyə və radikalizmə alternativ kimi" mövzusunda seminar-treninq keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev, Ağsu RİH-in İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Mirqubad Orucov, idarə, müəssisə və təşkilat rəhbərləri, dini icma sədrləri, ziyalılar, ağsaqqallar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev rayondakı dini durum, dövlət və din münasibətləri, milli-mənəvi dəyərlər barədə ətraflı məlumat verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan edilməsi, bununla bağlı ölkədə silsilə tədbirlər keçirilməsi barədə tədbir iştirakçılarına geniş məlumat verərək bildirib ki, multikulturalizm Azərbaycan xalqının tarixi ənənələrindən irəli gəlməklə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Sədr müavini çıxışında, eyni zamanda dini radikalizm və onun fəsadları, həmçinin radikalizmlə mübarizə sahəsində dini icmaların fəaliyyətinin tənzimlənməsi məsələlərinin önəmini xüsusilə vurğulayıb. Tədbirdə çıxış edən natiqlər mövzu ilə əlaqədar fikirlərini bölüşüblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.





# Bölgələrdə "Multikulturalizm ili" çərçivəsində tədbirlər keçirilib

Tarixi İpək yolu üzərində yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Odur ki, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlərarası və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyi nəzərə alınaraq, Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmiş və bu yaxınlarda "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq olunması haqqında Sərəncam imzalamışdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də "Multikulturalizm ili" çərçivəsində paytaxtla yanaşı, regionlarda bölgə şöbələri, rayon icra hakimiyyətləri və digər dövlət qurumlarının birgə təşkilatçılığı ilə ardıcıl regional konfranslar, seminarlar, "dəyirmi masa"lar təşkil edir. "Multikulturalizm ənənələrinə sadiqlik", "Azərbaycan Multikultralizmi: Keçmişdən Günümüzə", "Multikulturalizm dini radikalizmə qarşı mübarizə vasitəsi kimi", "Multikulturalizmin Azərbaycan modeli", "Multikultralizm Azərbaycanın milli-dini dəyərlərinin gözü ilə", "Multikulturalizm Azərbaycanın həyat tərzidir", "Multikulturalizm və tolerantlıq dövlət siyasətinin bir istiqaməti kimi" mövzularında Şəki, Zaqatala, Abşeron rayonun Pirəkəşkül kəndi, Qaradağ rayonun Qobustan qəsəbəsi, İsmayıllı rayonu Hacıhətəmli kəndi, Bakının Səbail və Binəqədi rayonları və Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində tədbirlər keçirilmişdir.



DQİDK-nın bölgə şöbələri və rayon icra hakimiyyətləri əməkdaşları, dini icma üzvləri, din xadimləri, ziyalılar, ağsaqqallar, dindarlar və gənclərin iştirak etdiyi tədbirlər işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş həmvətənlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Çıxışlarda keçirilən tədbirlərin əhəmiyyətindən danışılaraq ölkəmizdəki dini tolerantlıq və multikulturalizm ənənəsindən, dövlətin din siyasətindən bəhs olunmuşdur. Qeyd edilmişdir ki, Azərbaycanda tarix boyu müxtəlif dinlərin, mədəniyyətlərin, o cümlədən xalqların və etnik qrupların nümayəndələri qarşılıqlı hörmət və birgəyaşayış şəraitində yaşamışlar. Heç zaman Azərbaycanda dini, etnik zəmində münaqişələr baş verməmişdir. Bu, həm xalqımızın mənimsədiyi İslam dininin humanist dəyərlərindən, həm cəmiyyətdə formalaşmış dözümlülük və multikultural ənənələrdən irəli gəlir, həm də dövlət-din münasibətləri modelinin uğurundan xəbər verir. Eyni zamanda, bildirilmişdir ki, xalqımızın tarixən formalaşmış milli-mənəvi dəyərlər sisteminin vacib elementlərindən biri olan multikulturalizm Azərbaycanda həyat tərzinə çevrilməklə yanaş, dövlət siyasətinin tərkib hissəsidir.

Bundan əlavə, dini radikalizmi və ekstremizmi təbliğ edən zərərli cərəyanlar barədə də söhbət açılan tədbirlərdə gənclərimizin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə olunmasını aşılamaq məqsədilə bu cür görüşlərin mütəmadi keçirilməsinin zəruriliyini bildirmişlər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# “Ermənistan hərbi məğlubiyyətini ört-basdır etmək üçün təbliğat sahəsində çox çirkin və cəfəng fikirlər yaymaqdadır”

**Bunu “teleqraf.com”-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.**

Onun sözlərinə görə, Ermənistan həm siyasi, həm iqtisadi, həm də psixoloji cəhətdən məğlub vəziyyətdədir: “Bizim şanlı ordumuz, qəhrəman əsgərlərimiz ermənilərə böyük dərs verdilər. Ermənilərin yaydığı cəfəng fikirlərdən biri də guya Suriyada qeyri-qanuni silahlı dəstələrin içərisində olan azərbaycanlıların geriyə qayıdaraq Qarabağda müharibədə iştirakı haqqında yayılan fikirlərdir.

Birincisi, Suriyada hansısa qeyri-qanuni silahlı dəstədə azərbaycanlı varsa, Azərbaycan qanunvericiliyinə görə həmin şəxs ölkəmizə qayıdanda hüquq-mühafizə orqanları tərəfindən saxlanılacaq və məhkəmə qarşısında cavab verməli olacaq. Çünki qanuna görə qeyri-qanuni silahlı birləşmələrdə iştiraka görə cəza nəzərdə tutulub.

Suriyada hər hansı azərbaycanlı varsa, onun silahı ilə Azərbaycana keçməsi ikinci cəfəngiyatdır. Erməni tərəfi böhtanları yaymaqla ictimai rəyi çaşdırmaq istəyir. Xüsusilə, Rusiyanın bəzi KİV-lərində əyləşmiş ermənilər Rusiya ictimai rəyində yanlış təəssürat yaratmaq istəyir ki, guya İŞİD qruplaşmaları da Azərbaycana gələ və ermənilərlə qarşı-qarşıya dura bilər. Azərbaycan ordusunun kifayət qədər gücü, qüdrəti var. Azərbaycan xalqının orduya, Prezidentimiz cənab İlham Əliyevin siyasətinə böyük dəstəyi var. Dünyanın da Azərbaycana böyük dəstəyini hər gün görməkdəyik. Ona görə ermənilərin yalan, təxribat fikirləri heç kəs tərəfindən ciddiyə alınmır. Bu, erməni təxribatının, çirkin sifətinin formasıdır”.

Mübariz Qurbanlı qeyd edib ki, qoşunların təmas xəttində baş verən silahlı toqquşmalar Azərbaycanın öz torpaqlarının azad etmək uğrunda apardığı ədalətli mübarizədir: “Azərbaycan BMT-yə daxil olanda ölkəmizin sərhədlərini bütün dünya qəbul edib. Ona görə də Azərbaycanın işğal olunmuş bütün əraziləri BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi Qətnamələrə uyğun olaraq azad edilməlidir. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində qeyd edilir ki, hər hansı bir ölkə işğala, təcavüzə məruz qalarsa, öz ərazisini silahla, güclə azad etmək haqqına malikdir. Bu, Azərbaycan xalqının haqqıdır, hüququdur. Biz haqq uğrunda mübarizə aparırıq. Prezidentimizin çox gözəl ifadəsi var: “Erməni əsgəri işğal olunmuş ərazilərdə nə gəzir ki, orada ölsün?” Erməni əsgəri torpaqlarımızdan rədd olmalıdır ki, xalqımız ərazilərimizin üzərində suverenliyini bərpa etsin. Bu haqq uğrunda da mübarizə aparırıq”.

# Azərbaycanda yaşayan dini konfessiya rəhbərləri dünya ictimaiyyətinə müraciət ünvanlayıblar



Azərbaycanda yaşayan dini konfessiya rəhbərləri - Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev və Avropa yəhudiləri icmasının sədri Gennadi Zelmanoviç aprel ayında Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş təxribatla bağlı dünya ictimaiyyətinə müraciət ünvanlayıblar.

Müraciətdə vurğulanıb ki, dünyanı məhvərindən çıxmağa qoymayan ümumi mənəvi dəyərlərə istinad edən din xadimləri bütün dünyada hər zaman sülh və anlaşma tərəfdarı kimi çıxış edirlər:

“Son günlər Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində erməni tərəfinin təxribatlara əl atması Ermənistanın işğalçı niyyətlərini bir daha sübut etdi. Münaqişənin sülh yolu ilə həllinə üstünlük verən, günahsız qurbanların sayının artmasını istəməyən Azərbaycan tərəfi əvvəlcə birtərəfli qaydada atəşkəs elan etdi. Hazırda ümumi atəşkəs haqda razılaşma əldə olunsa da, qarşı tərəfdən mütəmadi şəkildə pozulmaqdadır”.

Müraciətdə bildirilib ki, dünya, o cümlədən ermənilərin özləri Dağlıq Qarabağın Azərbaycan torpaqları olduğunu bilir: “Bütün beynəlxalq sənədlərdə Azərbaycanın ərazi bütövlüyü tanınır, “Dağlıq Qarabağ respublikası” adlandırılan qondarma qurum heç kəs tərəfindən qəbul edilmir, nəticə etibarilə, işğal altında olan ərazilər nəzarətsiz, istənilən qanunsuz əməllər üçün əlverişli məkandır. Separatçı, terrorçu rejimin müdafiəsini məhz Ermənistan həyata keçirir. Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş dəyərli həmvətənlərimizin ruhu qarşısında ehtiramla baş əyir, onların ailələrinə, yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlıqlarımızı bildirir, Uca Allahdan şəhidlərə rəhmət, yaralılara tezliklə şəfa tapmalarını diləyirik”.

# Müasir dünyada müxtəlif dinlərin dialoqu sülh üçün böyük önəm kəsb edir

***Bu fikir İstanbulda keçirilən XIX Avrasiya İqtisadi Zirvə toplantısında iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin Türkiyənin baş ravvini İshak Haleva ilə görüşündə səsləndirilib.***



Allahşükür Paşazadə XIX Avrasiya İqtisadi Zirvə toplantısının iqtisadi forum olmasına baxmayaraq, dinlərarası dialoq üçün də gözəl fürsət olduğunu söyləyib. Dünyada müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyatda yaşanan böhranların həm də mənəvi səciyyə daşımasına diqqəti çəkən şeyxülislam vurğulayıb ki, son zamanlar dünyada baş verən terror aktları bir daha sübut edir ki, mədəniyyətlərarası, dinlərarası dialoq sahəsində hələ çox iş görülməlidir. O, arzu etdiyini bildirib ki, dünya birliyi – siyasi liderlər, beynəlxalq təşkilatlar, dini rəhbərlər birləşərək multikultural dəyərlərin zəfərini, ümumi evimizdə sabitlik və sülhü təmin etsinlər. Bütün bunların fövqündə milli-mənəvi dəyərlərinə sadiq, demokratik, dünyəvi dövlət olan Azərbaycanın öz multikultural dövlət modelini qloballaşan dünyaya təqdim etdiyini qürurla bildirən QMİ sədri Prezident İlham Əliyev tərəfindən bu ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunmasının bu baxımdan böyük önəm daşıdığını diqqətə çatdırıb.

Türkiyənin baş ravvini İshak Haleva bildirib ki, qədim zamanlarda din müxtəlifliyi müharibələrə səbəb olurdu. Lakin müasir dünyada müxtəlif dinlərin dialoqu sülh üçün böyük önəm kəsb edir. O, şeyxülislamın dinlərarası əməkdaşlıq sahəsində beynəlxalq nüfuzunun və Azərbaycan dövlətinin bu sahədə təcrübəsinin böyük əhəmiyyətini və bu məqamlardan istifadənin önəmini vurğulayıb.

# Masallıda “Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində milli-mənəvi dəyərlərimizin rolu” mövzusunda tədbir keçirilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə aprelin 19-da şəhid Rafiq Əlihəsənov adına 1 N-li tam orta məktəbinin akt zalında “Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində milli-mənəvi dəyərlərimizin rolu” mövzusunda tədbir keçirilib.

Tədbirin əvvəlində işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov Azərbaycanın müstəqilliyini bərpa etdiyi dövrdən bugünədək vətənpərvərlik mövzusunda aparılan məqsədyönlü işlərdən danışıb. O bildirib ki, bugünkü gəncliyin milli-mənəvi dəyərlərinə sahib və vətənpərvər ruhda böyüməsi istiqamətində dövlətimiz ardıcıl və düşünülmüş şəkildə işlər həyata keçirir.

Masallı RİH-in məsul işçisi Nazim Muradov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mirqiyas Təhməzov və digərləri öz çıxışlarında vətən sevgisindən, şəhidlik zirvəsindən, o cümlədən gənc nəslin milli ruhda böyüməsindən ətraflı danışıblar.



# Tolerantlığın Azərbaycan modelindən faydalanmaq dövrün tələbinə çevrilib

Aprelin 6-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov "Aziz" Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivak və təşkilatın Azərbaycandakı nümayəndəsi Vahid Bayramovla görüşüb.

Qonaqlara Azərbaycanda dini durum barədə məlumat verən Səyavuş Heydərov qeyd edib ki, ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir. Bütün dinlərin nümayəndələri bərabərhüquqlu şəkildə fəaliyyət göstərir və bu baxımdan Azərbaycandakı mövcud dövlət-din münasibətləri modeli beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur. Dövlət Komitəsinin sədr müavini diqqətə çatdırıb ki, tolerantlıq xalqımızın gen yaddaşının məhsuludur və bu gün dövlət siyasətinin tərkib hissəsinə çevrilərək möhkəmlənməklə dünya miqyasında nümunəvi modellərdən biri səviyyəsinə yüksəlmişdir: "Müasir dövrdə dünyanın bir çox ölkəsində cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslər fonunda dini təhlükəsizlik məsələsi daha da aktuallaşıb. Bu səbəbdən artıq dini təhlükəsizlik Azərbaycanın dövlət təhlükəsizliyinin mühüm elementinə çevrilib. Ölkəmizdə təkcə dinlərarası deyil, məzhəblərarası fərqliliklər də multikulturalizmin tərkib hissəsi qəbul olunur. Şübhəsiz, multikulturalizmin və tolerantlığın Azərbaycan modeli düzgün istifadə olunacağı təqdirdə, digər ölkələrdəki dinlərarası və məzhəblərarası ixtilafların qarşısının alınmasına, sülhün təmin edilməsinə töhfə verə bilər".

Səmimi görüşə görə minnətdarlığını bildirən qonaqlar Azərbaycandakı dövlət-din münasibətləri modelinin uğurlu nəticələrinin təkzibedilməz olduğunu bildiriblər. Qeyd edilib ki, bu model qorunub inkişaf etdirilməklə yanaşı, nəinki region dövlətlərində, bütün dünyada nümunəvi model kimi öyrənilməli və geniş mənada tətbiq olunmalıdır.

Sonda sülh və barışa böyük ehtiyac duyulan müasir dünyada tolerantlığın Azərbaycan modelinin dünyaya ixrac edilməsi üçün birgə layihələrin hazırlanaraq həyata keçirilməsinə dair razılıq əldə edilib.

# Şəhidlərin xatirəsinə həsr olunmuş tədbir keçirilib



***Qafqaz Müsəlmanları İdarəsində (QMİ) şəhidlərin xatirəsinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə müqəddəs Qurani-Kərimdən ayələr oxunub.***

QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın azadlığı uğrunda canlarından keçmiş şəhidlərin ailələrinə başsağlığı verərək deyib: "Son günlərin hadisələri göstərdi ki, Azərbaycan əzəli torpaqlarını işğaldan azad etməyə hazırdır. Dünya birliyi Azərbaycanı dəstəkləyir. Biz inanırıq ki, torpaqlarımız işğaldan azad ediləcək. Bütün dünya bilir ki, bu torpaqlar Azərbaycanındır". O xatırladıb ki, xalq ötən əsrin 90-cı illərinin əvvəllərində də Vətən uğrunda fədakarcasına döyüşüb, amma səriştəsiz rəhbərlik o vaxt ölkəni fəlakət girdabına yuvarladıb. Ulu Öndər Heydər Əliyevin respublikada rəhbərliyə qayıdışından sonra intensiv ordu quruculuğuna başlanılıb. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətin yürütdüyü siyasət nəticəsində hazırda cəbhədə müvəffəqiyyət qazanılıb və irəliləyiş olub.

Şeyxülislam deyib: "Biz şəhidlərimizi heç vaxt unutmamalıyıq. İnanıram ki, qələbə bizimlə olacaq və biz onu qazanacağıq".

Tədbirdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Milli Məclisin deputatları Mirfəttah Heydərov, Siyavuş Novruzov, Ziyad Səmədzadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, əsas dini konfessiyaların başçıları çıxış ediblər. Şəhidlərin qohumları bildiriblər ki, döyüşçülər arasında vətənpərvərlik, görünməmiş ruh yüksəkliyi və fədakarlıq əzmi hökm sürür. Bildirilib ki, hazırda dövlətlə din arasında yeni qarşılıqlı münasibətlər formalaşıb. Bu münasibətlər hələ indiki qədər harmonik və sinxron olmayıb. Bu işdə Prezident İlham Əliyevin böyük xidmətləri var.

Aprelin 2-nə keçən gecə Azərbaycanın bütün sərhədyanı mövqeləri iriçaplı silahdan, minaatanlardan, qumbaraatanlardan və artilleriya qurğularından intensiv atəşə tutulub. Atəş nəticəsində mülki əhali arasında həlak olanlar və yaralananlar var.

Aprelin 5-də saat 12.00-dan Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində hərbi əməliyyatlar hər iki tərəfin razılığına əsasən dayandırılıb. Atəşkəs haqqında razılaşmaya baxmayaraq, Ermənistan tərəfi qoşunların təmas xətti boyu daim onu pozur.

Azərbaycanın dini konfessiyalarının rəhbərləri bu yaxınlarda təmas xəttində Ermənistanın son provokasiyaları ilə bağlı narahatlığını bildiriblər. Onlar bununla bağlı dünya ictimaiyyətinə müraciət qəbul ediblər.

# Səyavuş Heydərov: Dünyada sülhün təminatında dini təhlükəsizlik problemi getdikcə artmaqdadır





**Aprelin 13-də Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində "Azərbaycanda radikal dini cərəyanlar və onlara qarşı mübarizə" mövzusunda seminar-müşavirə keçirilib.**

Tədbirdə Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayon prokurorluqlarının, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerli strukturlarının rəhbər və məsul nümayəndələri, ziyalılar, dindarlar iştirak ediblər.

Müşavirənin əvvəlində erməni silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının müavini Yetkin Mehmanov çıxış edərək, ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlikdən və bütün dünyaya örnək ola biləcək tolerantlıq mühitindən danışıb. Bildirilib ki, bu sabitlik əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət nəticəsində mümkün olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov müşavirədə diqqəti din pərdəsi adı altında aparılan münaqişələrə çəkərək bildirib ki, dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edir. İslamı siyasiləşdirərək, daxildə qarışıqlıq yaratmaqla onun gözdən salınmasına yönələn siyasət həyata keçirilir. Belə bir şəraitdə dünyada sülhün təminatında dini təhlükəsizlik problemi getdikcə artmaqdadır.

Səyavuş Heydərov "Dini ekstremizmə qarşı mübarizə haqqında" Qanunun tələblərindən irəli gələn məsələlər, dini radikalizm və onun fəsadları barədə də ətraflı məlumat verib. Bildirilib ki, dünyanın belə böhranlı bir dövründə Azərbaycanda qlobal təhlükəsizlik məsələləri müzakirə olunur, tolerantlıq təbliğ edilir. Azərbaycan bu gün dünyaya təkcə enerji təhlükəsizliyində deyil, eyni zamanda qlobal təhlükəsizlik məsələlərində də töhfə verən ölkəyə çevrilib. Artıq dünya birliyi Azərbaycanı tolerantlıq nümunəsi kimi görür.

Dövlət Komitəsinin sədr müavini diqqətə çatdırıb ki, bəzi qrupların din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına yönəlmiş pozuculuq fəaliyyətlərinə qarşı dövlət qurumları tərəfindən mübarizə tədbirləri həyata keçirilir.

Tədbirdə Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini Hikmət Eyvazov, Qusar rayon prokuroru Zahid Vəliyev və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi çıxış edərək, ölkəmizdəki multikultural və tolerant mühitdən, dini radikalizm və onun fəsadlarından, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı pozuculuq fəaliyyətlərinin qarşısının alınmasına yönələn tədbirlərdən danışıblar.

Çıxışlardan sonra seminar–müşavirə müzakirələrlə davam etdirilib. Vurğulanıb ki, radikalizmlə mübarizədə hər bir Azərbaycan vətəndaşı, xüsusilə də ziyalılar və dindarlar fəallıq göstərməlidirlər. Gənclərimizi dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti bütün cəmiyyətin üzərinə düşür. Dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

## "Dağılmış ibadət evlərimiz bərpa olunacaq"



**"Ümumiyyətlə ibadət evinin, məscidin bombalanması, təcavüzə məruz qalması Ermənistan dövlətinin xislətini bir daha əyani şəkildə göstərir".**

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov SİA-nın əməkdaşının sualını cavablandırarkən deyib.

Onun sözlərinə görə, Azərbaycan tərəfi dəfələrlə bunun şahidi olub: "Belə ki, Şuşadakı, Ağdamdakı məscidləri ermənilər nəinki dağıtmışlar, eyni zamanda həmin məscidlərdən başqa məqsədlər üçün istifadə edirlər. Hətta həmin məscidlərdə mal-qara saxlanılır. Bu, Ermənistan dövlətinin mahiyyətini, erməni xislətini, erməni təcavüzünü bir daha açıq-aydın göstərir. Sonuncu hadisələr zamanı da Ağdamda məscidin bombalanması bir daha onu göstərdi ki, Ermənistanın təcavüzü təkcə Azərbaycan dövlətinə, xalqına, torpaqlarımıza qarşı deyil, eyni zamanda xalqımızın mənəvi dəyərlərinə, ibadət evlərinə qarşı yönəlib.

Məscidin təmiri məsələsinə gəlincə isə sədr müavini deyib ki, bu istiqamətdə işlər gedir: "Heç kimin şübhəsi olmasın ki, erməni təcavüzünün qurbanı olmuş, eyni zamanda sonuncu hadisələr zamanı dağılmış ibadət evlərimizin hamısı bərpa olunacaq və isifadəyə veriləcək".

## "Milli-mənəvi dəyərlərimiz və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda konfrans keçirilib



Aprelin 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin deputatı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Gənclər Fondunun rəsmiləri, eləcə də Komitənin əməkdaşları, YAP Gənclər Birliyinin üzvləri, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin və Bakı İslam Universitetinin tələbələri, ziyalılar və gənclər iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov çıxış edərək bildirib ki, bu günlərdə cəbhə xəttində baş verən hadisələrdən sonra belə bir konfransın keçirilməsi təsadüfi deyil. Əslində, cəbhədə baş verənlər Azərbaycan ordusunun və Azərbaycan gəncliyinin əzmkarlığını nümayiş etdirdi: "Bu hadisə həm Azərbaycan ordusunun nəyə qadir olduğunu, həm xalqımızın monolitliyini, həm Ali Baş Komandanın ətrafında sıx birləşməsini, həm də Azərbaycan gəncliyinin mübarizliyini və vətənpərvərliyini bir daha təsdiqlədi. Gənclərimizin nümayiş etdirdikləri vətənpərvərlik tədqiraləyiqdir və bu onu göstərir ki, Azərbaycan gəncliyi işğal olunmuş torpalarımızı azad etməyə mənəvi-psixoloji baxımdan tam hazırdır".

Gündüz İsmayılov qeyd edib ki, milli-mənəvi dəyərlər ruhunda formalaşmayan gənclik vətənpərvər ola bilməz. Çünki vətənpərvərlik milli-mənəvi dəyərlərimizin və azərbaycançılıq ideologiyasının əsas elementlərindən biridir. Bu baxımdan son hadisələr Azərbaycan gəncliyinin həm də milli-mənəvi dəyərlərimizə sadiqliyini nümayiş etdirdi. G. İsmayılov vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin təbliği həm də radikalizmlə mübarizə çərçivəsində önəmli amillərdən biridir. Son hadisələr bir daha göstərdi ki, bizim savaşacağımız yer də, şəhid olacağımız məkan da Qarabağdır.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Seymur Orucov vurğulayıb ki, cəbhədə baş verən hadisələr zamanı Azərbaycan gəncliyinin nə qədər vətənpərvər olduğunun şahidi olduq: "Nəinki Azərbaycanın daxilində yaşayan gənclərimiz, eləcə də ölkəmizin hüdudlarından kənarda yaşayan gənclərimiz də monolitlik göstərdilər. Beləcə, onlar cənab Prezidentin aparmış olduğu siyasəti tam dəstəklədilər. Onlar Vətənləri, torpaqları üçün son damla qanlarını belə verməyə hazır olduqlarını bildirdilər. Həqiqətən biz belə gənclərimizlə, partiyamızın üzvləri və Azərbaycan vətəndaşları ilə fəxr edirik".

Sonra Milli Məclisin deputatı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılovun "Müasir gənclik və Vətənə məhəbbət", Bakı Dövlət Universitetinin müəllimi Aqil Şirinovun "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik", Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Hikmət Babayevin "Multikultural cəmiyyətdə ortaq dəyər: Vətən uğrunda vəhdət" mövzularında məruzələri dinlənilib. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Aparat rəhbəri Faiq Qürbətov, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Ramin Məmmədov məruzələr ətrafında çıxış ediblər.

Diqqətə çatdırılıb ki, atəşkəs rejiminə dair sənədin imzalanmasından 22 il keçməsinə baxmayaraq, bugünkü gəncliyin döyüş ruhu və fədakarlığı ölkə rəhbərliyinin gənclər siyasəti və kursunun doğruluğunu bir daha təsdiqləyir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb.

## Kürdəmir və Ucarda seminar-müşavirə



**Aprelin 14-də Kürdəmir rayonu Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Kürdəmir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda seminar-müşavirə keçirilib.**

Müşavirədə DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev, Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə, Maliyyə-təsərrüfat şöbəsinin müdiri Oqtay Hüseynov, Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Əzim Rəfiyev, Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai -siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəsilə Əsgərli, şöbənin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, dini icma sədrləri, ziyalılar, ağsaqqallar, dindarlar və gənclər iştirak ediblər.

Müşavirə iştirakçıları şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəsilə Əsgərli bildirib ki, dini sahədə DQİDK tərəfindən həyata keçirilən maarifləndirmə tədbirləri öz müsbət təsirini göstərməkdədir. Dövlət başçısı cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı ilə ölkədə fəaliyyət göstərən dini icmalara maliyyə yardımının ayrılması və bu yardımdan Kürdəmir rayonunda fəaliyyət göstərən icmaların da bəhrələnməsi nəticəsində yüzlərlə dindar düzgün dini biliklər əldə edib və ənənəvi İslam dinini mənimsəyiblər.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev dini radikalizm fəsadları və onlarla mübarizə yolları barədə geniş məruzə ilə çıxış edib. Dini radikal qruplara qarşı ən effektiv yolun maarifləndirmə olduğunu bildirən S.Mirzəyev dini icmaları və din xadimlərini ictimai həyatda fəal olmağa, dinə meyilli təbəqə ilə iş aparmağa çağırıb.

DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə çıxışında əsas diqqəti bölgələrdə fəaliyyət göstərən dini icmaların radikalizmlə mübarizədəki roluna yönəldib.

Daha sonra DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Əzim Rəfiyev Kürdəmir rayonunda radikalizmlə mübarizədə dini icmalarla aparılan qarşılıqlı əməkdaşlıqdan danışıb.

* * *

**Aprelin 15-də Ucar rayonu Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Ucar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda seminar-müşavirə keçirilib.**

Müşavirə iştirakçıları şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan Ucar İcra Hakimiyyətinin İctimai – siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Məhəmməd Bayramov rayonda dövlət və din münasibətləri istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev Azərbaycanda dövlət-din münasibətləri və bu istiqamətdə görülən işlər barədə ətraflı danışıb. Sadiq Mirzəyev respublikamızda dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili sahəsində dövlətin həyata keçirdiyi tədbirləri müşavirə iştirakçılarının nəzərinə çatdırıb.

DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə də tədbirdə çıxış edərək ölkəmizin zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olduğunu söyləyib.

Daha sonra DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Əzim Rəfiyev Ucar rayonunda dövlət-din münasibətləri sahəsində dini icmalarla aparılan qarşılıqlı əməkdaşlıqdan danışıb.

Hər iki tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Dini maarifləndirmə layihəsi çərçivəsində

Azərbaycan dövləti müxtəlif dini inanclara sahib vətəndaşlarımız arasında mövcud tolerantlığın gücləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsinə hər zaman yüksək diqqət və qayğı göstərmişdir. Dövlətimizin milli-mənəvi dəyərlərimizin, ümumilikdə dinimizin təbliği istiqamətində atdığı addımlardan biri də ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə Prezident cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamıdır. Həmin ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ayrılmış 2.5 milyon manat vəsait mərhələli şəkildə xüsusi layihələr çərçivəsində dini icmalara paylanılır. İndiyədək 116 dini icmaya maddi vəsait ayrılıb. Hazırda layihələr çərçivəsində bölgələrdə tədbirlər uğurla davam etdirilir. Bu qəbildən tədbirlər Şamaxı şəhər “Cümə” məscidi, Ucar rayonu Çiyni kənd “Hacı Ağamirzə” məscidi, Oğuz rayonu Xaçmaz kənd məscidi, Göyçay rayonu Potu kənd “İmam Hüseyn” məscidi, Sumqayıt şəhər “Cümə” məscidi, Sumqayıt şəhəri Kotec qəsəbəsi “İmam Sadiq” məscidi, Samux rayonu Samux şəhər müsəlmanlarının dini icması, Mingəçevir şəhəri Mingəçevir kənd “Cümə” məscidi, Sabirabad şəhər “Heydər” məscidi, Göyçay şəhər Əbülfəzlil Abbas məscidi, Qəbələ şəhər dindarlarının məscidi, Xaçmaz rayonu Müqtədir qəsəbə “Şeyx Ömər” məscidi, Ağcabədi rayon “Seyid Mürsəl Ağa” məscidi, Füzuli rayon Horadiz şəhəri “Əhli-Beyt” məscidi, Ağdaş şəhəri “Üç qovaq” məscidi, Ağdam rayon Xındırıstan kənd məscidi, Sabirabad rayonu Bulaqlı kənd məscidi, Qazax rayonu Daşsalahlı kənd məscidi, Qazax “Cümə” məscidi, Ağsu şəhər “Nuran Xatun” məscidi, Qusar rayonu Avaran kənd məscidi və Xəzər rayonu Binə qəsəbəsi “İmam Rza” məscidi dini icmaları tərəfindən həyata keçirilmişdir.

“Milli-mənəvi dəyərlərin təbliğində gənclərin rolu”, “Multikulturalizm: dini ayrı-seçkilik və ekstremizmə alternativ kimi”, “Dini fanatizm və ekstremizm: multikultural cəmiyyət üçün təhlükə”, “Milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə”, “İslamda ailənin rolu”, “Radikalizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizdən istifadə”, “Dindarların radikal təsirlərindən qorunması”, “Milli-mənəvi dəyərlərimiz və müasirlik”, “Dini radikalizm və gətirdiyi fəsadlar”, “Gənclərimizi radikal dini təmayüllü cərəyanların təsiri altına düşməkdən qoruyaq”, “İslamda ailə dəyərləri”, “Qəhrəmanlar unudulmur!”, “İslam qardaşlıq dinidir”, “İslamda Vətən sevgisi”, “Nümunəvi dindar və mötədil müsəlman şəxsiyyəti” və s. mövzularda təşkil olunan tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları, dini icma üzvləri, dindarlar, ağsaqqallar, ziyalılar və gənclər iştirak etmişlər.

Tədbirlər cəbhənin təmas xəttində gedən döyüşlərdə şəhid olmuş hərbçilərimizin, mülki vətəndaşlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, yaralıların isə tezliklə şəfa tapması üçün edilən dualarla başlamışdır.

Çıxışlarda Azərbaycanın dövlət-din münasibətləri modeli, mövcud dini durum, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və multikulturalizm ənənəsi, dini radikalizm və ekstremizmlə mübarizə metodları, eyni zamanda dövlət başçısı cənab İlham Əliyevin 2016-cı ili “Multikulturalizm ili” elan etməsinin əhəmiyyəti barədə geniş məruzələr dinlənilmişdir.

Dini maarifləndirmə sahəsində görülən işlərin əhəmiyyətinin vurğulandığı tədbirlərdə qeyd olunmuşdur ki, layihələr çərçivəsində sağlam dini biliklərə söykənən silsilə maarifləndirmə tədbirləri həyata keçirilir. Müasir dünyada dini-etnik zəmində baş verən münaqişələrin fonunda milli-mənəvi, eyni zamanda ənənəvi dini dəyərlərimizin təbliğinin vacibliyi önə çəkilmiş, dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayrılması barədə Sərəncamı tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir. Həmçinin ölkəmizdə multikultural mühitin dərin tarixi köklərə malik olduğu vurğulanan tədbirlərdə Prezident İlham Əliyevin Azərbaycanda 2016-cı ili “Multikulturalizm ili” elan etməsinin dindarlar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandığı qeyd olunmuşdur. Bildirilmişdir ki, xalqımızın zəngin multikultural və onun tərkib hissəsi olan tolerantlıq ənənələrinin qorunub daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizdə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələri sülh və əmin-amanlıq şəraitində, heç bir ayrı-seçkiliyə məruz qalmadan mehriban yaşaması bu ənənənin tarixi keçmişimizdən, mental dəyərlərimizdən qaynaqlanır. Bu gün Azərbaycanda mövcudiyyətini qoruyub saxlayan dini tolerantlıq və multikultural dəyərlərin inkişafında dini icmalar və dindarlar aktiv fəaliyyət göstərməlidirlər.

Tədbirlərdə İslam dinin vətən sevgisinə verdiyi dəyərdən də bəhs olunmuş və bildirilmişdir ki, dinimizə görə, bir gecə sərhəd boyunca növbə gözləmək gündüzləri orucla, gecələri ibadətlə keçirilən bir aydan daha xeyirlidir. Milli xüsusiyyətlərimizi vətən anlayışında cəmlədiyimiz üçün vətənin bizə çox müqəddəs, sərhədinin isə toxunulmaz və əziz olduğu diqqətə çatdırılmışdır.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.
















# Şəkidə “Narkomaniya, erkən nikah, dini radikalizm və onun fəsadları” mövzusunda maarifləndirmə tədbiri keçirilib

**Aprelin 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Şəki rayonu Vərəzət kənd tam orta məktəbində şagird və müəllimlərin iştirakı ilə “Narkomaniya, erkən nikah, dini radikalizm və onun fəsadları” mövzusunda tədbir keçirilib.**

Tədbirdə ekspert qismində Şəki rayon Təhsil şöbəsinin baş məsləhətçisi Cumay Kərimov, DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Elvin Qarayev və Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Əliəkrəm Məmmədov mövzu ilə bağlı çıxış edərək gənclərin narkomaniya, erkən nikah, dini radikalizm və digər bu kimi zərərli meyillərdən uzaqlaşdırılması, bu sahədə qarşıda duran vəzifələr barədə danışıb.



Təhsil şöbəsinin əməkdaşı Cumay Kərimov “Narkomaniya bəşəri problemdir” mövzusu ətrafında çıxış edərək narkomaniyanın yayılmasına, dini radikalizm və erkən nikah hallarına qarşı hamılıqla mübarizə aparılmasının vacibliyini önə çəkib, bu işdə əmək kollektivlərinin, müəllimlərin, gənclərin, habelə valideynlərin üzərinə çox böyük vəzifə və məsuliyyətin düşdüyünü xüsusi vurğulayıb.

DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin əməkdaşı Elvin Qarayev öz çıxışında dini radikalizm, qeyri-ənənəvi dini cərəyanlar haqqında geniş məlumat verib, radikallığın, zərərli vərdişlərin İslam dinində qəbul edilmədiyini vurğulayaraq radikal meyillərin mənfi təsirindən qorunma üsullarını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Şəki Şəhər Rayon Polis Şöbəsinin yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektoru Anar Xaliqov şagirdlərə erkən nikahın mənfi cəhətləri haqqında geniş məruzə edib. O bildirib ki, davamlı olaraq keçirilən belə maarifləndirici tədbirlər gənclər arasında sağlam həyat tərzinin təbliği işini daha da yaxşılaşdırmaq, gənclərdə narkomanlığın fəsadları haqqında düzgün təsəvvürlər formalaşdırmaq, radikal dini təriqətlərə meyillərin artmasının qarşısını almaq, habelə erkən nikahın yaratdığı problemlər barədə gəncləri daha geniş məlumatlandırmaq məqsədi daşıyır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "QARA QIZIL"ın QƏLƏBƏsi




***Ötən əsrin birinci yarısında baş vermiş İkinci dünya müharibəsi bəşər tarixinə öz damğasını vurmuş bir savaşdır. 50 milyondan artıq insanın həyatını itirdiyi bu müharibədə bəşəriyyət üçün təhlükəli olan nüvə silahlarından belə, istifadə olunmuşdur.***

Müharibə illərində Almaniyanın "Edelveys", İngiltərə və ABŞ hökumətinin "Vilvet" planları Qafqazın, xüsusilə Azərbaycanın ələ keçirilməsinə istiqamətlənmişdi. Çünki Azərbaycan həm zəngin təbii resurslara, həm də digər ərazilərin rahatlıqla işğalı üçün əlverişli mövqeyə malik idi. Həmin dövrdə müharibə aparan dövlətlər yaxşı bilirdilər ki, döyüşlərdə yanacaqsız zəfər qazanmaq çətin olacaq. Buna görə də gecə-gündüz Bakı neftini ələ keçirmək uğrunda amansız mübarizə gedirdi. Ancaq Azərbaycan Sovet Rusiyasının tərkibində olduğundan bu müharibədə Bakı neftindən yararlanmaq SSRİ-nin payına düşdü.



Bakı neftçiləri müharibənin tələblərini qarşılamaq üçün dayanmadan neft çıxarırdılar. Uzun illər SSRİ yanacaq sənayesinə rəhbərlik etmiş Nikolay Baybakov öz çıxışlarında qeyd etmişdir ki, imperiyanın neft balansında Azərbaycanın iştirakı olmasaydı, faşizm üzərində qələbə sual altına düşə bilərdi. Marşal A.A.Qreçko isə öz yazılarında göstərirdi ki, "Bakıdan cəbhəyə tükənməz axınla yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla doldurulmuş yük qatarları gəlirdi". Müharibə illərində Avropada belə bir deyim formalaşmışdı ki, kim Bakı neftinə sahib olarsa, o da müharibədə qalib gələcəkdir. Hitler nə qədər cəhd göstərsə də, Bakını tutmaq ona qismət olmadı və o yalnız üzərində Xəzər dənizi və Bakı şəhəri təsvir edilmiş tortu yeməklə kifayətləndi. Lakin müharibə illərində Bakının çəkdiyi əziyyəti qiymətləndirən olmadı. Belə ki, Leninqrad, Stalinqrad kimi şəhərlər "qəhrəman şəhər" statusu alsalar da, Bakı bu addan kənarda qaldı.

Döyüşlərdə azərbaycanlılar təkcə arxa cəbhədə deyil, ön cəbhədə də qəhrəmanlıqlar göstərmişlər. Xatırlamaq lazımdır ki, ruslar ölkəmizi zəbt etdikdən sonra azərbaycanlıları ordudan kənarlaşdırır, onları hərbi sirlərə yiyələnməyə qoymurdular. Buna baxmayaraq, ayrı-ayrı soydaşlarımız, əsasən də varlı sinfin nümayəndələri, bəy nəslindən olanlar, tək-tək hallarda isə xüsusi istedadlılar hərbi məktəbləri bitirib zabit kimi orduda xidmət edirdilər.

Müharibə dövründə Sovet rəhbərliyi azərbaycanlılara etibar etmirdi. Hətta İ.V.Stalin azərbaycanlıların Mərkəzi Asiya və Qazaxıstana sürgün olunmasına göstəriş vermişdi. Bütün bunlar azərbaycanlılara olan nifrət hissini bir daha üzə çıxarırdı. Lakin o dövrün səriştəli və uzaqgörən siyasətçilərindən M.C.Bağırov Stalinə söylədiyi əsaslı dəlillərdən sonra onu bu fikrindən daşındırmağa nail olmuşdur.

Bu çətin illərdə azərbaycanlılar faşistlərlə mübarizədən qaçmamış, öz döyüşkənlik ruhlarını bir millət kimi nümayiş etdirmişər. Azərbaycanlı hərbçilərdən başda İsrafil Məmmədov, Həzi Aslanov, Qafur Məmmədov, Ziya Bünyadov, Yusif Sadıqov, Gəray Əsədov olmaqla ümumilikdə 121 nəfər azərbaycanlı Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdü. Müharibə illərində hətta azərbaycanlı təyyarəçilər də düşmənin başına bombalar yağdırırdı. Bu illərdə hərbi təyyarəçilər Adil Quliyev, Züleyxa Seyidməmmədova, Hüseynbala Əliyev və digər azərbaycanlı pilotların qəhrəmanlıqları dillər əzbəri olmuşdu. Sovet ordusunun Qafqaz cəbhəsinin müdafiəsində və Avropanı azad etməsində Azərbaycanın 77, 402, 416, 223, 271-ci diviziyaları əvəzsiz xidmət göstərmişdi. Hətta onlar göstərdikləri şücaətə görə "Taqanroq", "Belqrad", "Qorlovka", "Simferopol" fəxri adlarına layiq görülmüşdülər. Bununla yanaşı, azərbaycanlılar könüllü şəkildə cəbhəyə yollanırdılar. "Aslan", "Qafqaz", "Vətən", "Dönməz" kimi hərbi dəstələrin yaranması bunun bariz nümunəsidir.

Müharibə illərində öz şücaəti ilə ad çıxarmış azərbaycanlı partizanları xatırlamamaq mümkün deyil. Onların göstərdikləri qəhrəmanlıqlar, hətta Avropanı belə heyrətə gətirmişdi. Partizanlarımız Almaniyanın Mauthauzen, Daxau, Zaksenhauzen, Ravensburyuk, Buhenvald kimi ölüm düşərgələrindən qaçaraq faşistlərin canlı qüvvəsinə dağıdıcı zərbələr endirmişdilər. Mehdi Hüseynzadə, Əhmədiyyə Cəbrayılov, Əli Babayev, Əkbər Ağayev, Vilayət Hüseynov, Ələkbər Əliyev kimi partizanlar azərbaycanlı adına layiq fəaliyyət göstərərək Avropada böyük ad-san qazanmışdılar. Müharibənin sonunda fransalı polkovnik Rişard öz çıxışında qeyd etmişdi: "Fransa azərbaycanlı hərbi əsgərlərin igidliyini unutmayacaqdır. Övladlarımız, nəvə və nəticələrimiz də biləcəklər ki, uzaq Azərbaycandan olan dostlarımız da Fransanın faşizmdən azad edilməsi yolunda canlarını əsirgəməmişlər".



Sovet rejimi qurulduqdan sonra vətənə dönə bilməyib Avropada qalan siyasi mühacirlərimiz müharibədə Almaniyanın qələbə qazanacağı təqdirdə Azərbaycanın öz istiqlaliyyətinə qovuşacağına ümid bəsləyirdilər. Hətta M.Ə.Rəsulzadə 1941-ci ildə Almaniyaya gəlmişdi. O, Hitlerlə danışığında azərbaycanlı əsirlərin azad edilməsi, milli Azərbaycan ordusunun yaradılması və Almaniyanın Qafqazı tutduğu zaman ilk növbədə bu ordunun Azərbaycana daxil olması məsələlərini qaldırmışdı. Ə.F.Düdənginski başda olmaqla digər siyasi mühacirlər isə Azərbaycan legionunu yaratmaqla Sovet rejiminin tərkibindən çıxmağa, Azərbaycanın dövlətçilik ənənələrini bərpa etməyə çalışırdılar. Ancaq təəssüf ki, bütü səylərinə baxmayaraq, onlar buna nail ola bilmədilər.

Tədqiqatçıların araşdırmaları göstərir ki, İkinci dünya müharibəsində Sovet qoşunlarının faşist Almaniyası üzərində qələbə qazanması əslində azərbaycanlıları növbəti qırğından qorumuşdur. Unutmaq olmaz ki, Hitlerin faşizm ideologiyası irqçilik, ayrı-seçkilik, başqa millətlərə qarşı nifrət üzərində qurulmuşdu. Əslində bu fikri Hitler "Mənim mübarizəm" adlı kitabında qeyd etmişdi: "Müsəlman monqoloidlər dağıdıcı qüvvədir. Buna görə də onlar ali irqin qulları olmalıdırlar".

Hazırda Rusiya ilə yanaşı, keçmiş Sovetlər Birliyinin tərkibində olmuş xalqlar hər il 9 may tarixini zəfər günü kimi bayram edirlər. Əslində bu zəfər onların çəkdiyi zəhmətin layiqli nəticəsidir. Azərbaycan dövləti müharibə veteranlarına böyük hörmət bəsləyir və onların qəhrəmanlıq fəaliyyətlərinin unudulmamasına çalışır. Hər bir azərbaycanlı anlamalıdır ki, qələbənin qazanılmasında Bakı neftinin rolu əvəzedilməzdir. Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev bunu 2003-cü ildə Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" adlı konfransda dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır: "Çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci dünya müharibəsində SSRİ-nin İngiltərə-Amerika koalisiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı".

***Hazırladı: Abdulla ƏFƏNDİYEV***

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Astara rayonu Artupa kənd məscidi**

**Astara rayonu Artupa kənd məscidi dini icması (29.12.1998-ci ildə Ədliyyə Nazirliyinin kollegiyası qərarına əsasən 255 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 18.04.2016-cı il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.**

**Sabirabad rayonu Qalaqayın kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 14 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110AI-163**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Vəliyev Əlihüseyn Quluş oğlu, Heydərov Süleyman Ağasahib oğlu, Mirzəyev Məzahir Əşrəf oğlu, Abasov Səxavət Əlövsət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Məhərrəmov Valeh Saleh oğlu, Rüstəmov Salman Saleh oğlu, Talıbov Əliş Əjdər oğlu, Qarayev Əlbağış Vəkil oğlu, Qasımov Nail Fərman oğlu, Əzizov Mecid Qərib oğlu, Əliyev Əlirazi Böyükkişi oğlu, Əliyev Tahir İman oğlu, Məmmədov Kəbir Həmid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 18 mart 2016-cı il**

**Göyçay rayonu Çərəcə kəndində yaradılan dini icma**
**Qeydiyyat tarixi: 18.03.2000-ci il**
**Qeydiyyat №-si: 358**

Göyçay rayonu Çərəcə kəndində yaradılan dini icma təsisçilərinin 27.02.2016-cı il tarixli, 02 №-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 18 mart 2016-cı il**

**Biləsuvar rayonu İsmətli kənd "Əbülfəzl" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-624**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**

Hüquqi ünvanı: Biləsuvar rayonu, İsmətli kəndi, "Əbülfəzl" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Hadı Səftər oğlu İsgəndərov

**Zərdab rayonu Məlikli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116D-625**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Zərdab rayonu, Məlikli kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Ruhid Lazım oğlu Quliyev

**Tərtər rayon "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116D-626**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Tərtər rayonu, "Cümə" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Sadiq Calal oğlu Cəfərov

**Lənkəran rayonu Lüvəsər kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-627**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Lənkəran rayonu, Lüvəsər kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Asif Zöhrab oğlu Əskərov

**Lerik rayonu Göydərə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-628**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Lerik rayonu, Göydərə kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Əvəz Əliabbas oğlu Əmirov

**Lənkəran rayonu Ürgə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-629**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Lənkəran rayonu, Ürgə kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Saleh Cabbar oğlu Abbasov

**Ucar şəhər "Cami" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116D-630**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Ucar şəhəri, Vaqif küçəsi 11, "Cami" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Ceyhun Ağasəməd oğlu Əliyev

**Bakı şəhəri Xətai rayonu "Mirtağı" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116B-631**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, G.Mehmandarov küçəsi, "Mirtağı" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Mircəfər Mirmusa oğlu Nəsirov

**Göyçay rayonu Çərəcə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-632**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Göyçay rayonu, Çərəcə kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Rahim Rafiq oğlu Həkimov

**Astara rayonu Alaşa kənd "Məhəmməd" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-633**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Astara rayonu, Alaşa kəndi, "Məhəmməd" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Təyyar Qəni oğlu Nəhmətov

**Lerik rayonu Piran kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-634**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Lerik rayonu, Piran kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Eldar Şahab oğlu Məmmədov

**Lerik rayonu Vizəzəmin kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-635**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Lerik rayonu, Vizəzəmin kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Eldar Şirinbəy oğlu Bünyadov

**Şəki rayonu Suçma kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-636**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Şəki rayonu, Suçma kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Məftun Yəhya oğlu Cəbiyev

**Hacıqabul şəhəri "Hacı Yadulla" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-637**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Hacıqabul şəhəri, "Hacı Yadulla" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Süleyman Yadulla oğlu Bəşirov

**Gəncə şəhər Yəhudi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-638**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Gəncə şəhəri, Şəddadilər küçəsi, ev 178

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Arif Babay oğlu Babayev

**Neftçala şəhəri V-məhəllə "İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-639**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Neftçala şəhəri, V-məhəllə 120, "İmam Hüseyn" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Elşən Məhəmməd oğlu Qənbərov

**Salyan şəhəri "Ağa Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-640**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Salyan şəhəri, Heydər Əliyev küçəsi 86, "Ağa Hüseyn" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: İbrahim İsgəndər oğlu Hüseynov

**Salyan rayonu Kərimbəyli kənd "Həzrəti Əbəlfəz" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-641**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Salyan rayonu, Kərimbəyli kəndi, "Həzrəti Əbəlfəz" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Marif Mirhəsən oğlu Pencəliyev

**Salyan rayonu Kürsəngi kənd "Hacı Səftər" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**

Qeydiyyat №-si: 100116C-642

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Salyan rayonu, Kürsəngi kəndi, "Hacı Səftər" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Şəhram Əlibala oğlu Şirinov

**Salyan rayonu I Varlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-643**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Salyan rayonu, I Varlı kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Məhəmməd Bəybala oğlu Hüseynov

**Ağsu rayonu Dilman kənd "Həzrəti Məhəmməd" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-644**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Ağsu rayonu, Dilman kəndi, "Həzrəti Məhəmməd" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Şanəsib Sarvan oğlu Cənnətəliyev

**Goranboy rayonu Borsunlu kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-645**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Goranboy rayonu, Borsunlu kəndi, "Cümə" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Arzu İlqar oğlu Novruzov

**Kürdəmir rayonu Karrar kənd "İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-646**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Kürdəmir rayonu, Karrar kəndi, "İmam Hüseyn" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Xudaverdi Novruz oğlu Novruzov

**Sabirabad rayon Qaraqaşlı kənd "İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-647**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Sabirabad rayonu, Qaraqaşlı kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: İltifat Həsənəli oğlu Abdullayev

**Bakı şəhəri Səbail rayonu "Bibiheybət Ziyarətgah" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116B-648**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Bibiheybət qəsəbəsi, Salyan şosesi 1, "Bibiheybət Ziyarətgah" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Rahib Hənifə oğlu Babayev

**Balakən rayonu Gərəkli kənd "Mazımçay" məscidi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-649**

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Balakən rayonu, Gərəkli kəndi, "Mazımçay" məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Ramazan Əli oğlu Molulov

Cəmiyyət və Din
№ 04 (297) / APREL 2016-cı il

# Milli Kitabxanada "Multikulturalizmin ədəbi-bədii mənbələri" kitabının təqdimatı keçirilib



Azərbaycan Milli Kitabxanasında Mədəniyyət və Turizm Nazirliyi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə "Multikulturalizmin ədəbi-bədii qaynaqları" kitabının təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri giriş sözü ilə açaraq bildirib ki, bu gün multikulturalizm qloballaşan dünyada ən aktual mövzudur. Ölkəmizdə tolerantlıq, milli azlıqlara hörmətli yanaşılması əsrlər boyu müşahidə olunub.

Kitabın elmi redaktoru, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev qeyd edib ki, "Azərbaycan multikulturalizminin qaynaqları" seriyasından ilk nəşr olan bu kitabda klassik ədəbiyyatımız tamamilə yeni rakursda təqdim olunub. Həmçinin bildirilib ki, "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları" kitabları da nəşrə hazırlanır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Türkiyənin Ərdəhan Universitetinin rektoru Ramazan Korkmaz, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, AMEA-nın Dilçilik İnstitutunun direktoru, professor Möhsün Nağısoylu, AMEA-nın Folklor İnstitutunun direktoru, professor Muxtar İmanov və başqaları "Multikulturalizm İli" çərçivəsində nəşr edilən yeni kitabın əhəmiyyəti haqqında danışıblar.

Təqdimatdan sonra iştirakçılar "Multikulturalizm Azərbaycanın həyat tərzidir" adlı kitab sərgisi ilə tanış olublar.

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 may | 5:03 | 6:25 | 12:45 | 17:14 | 19:19 | 20:21 |
| 2 may | 5:01 | 6:24 | 12:44 | 17:14 | 19:20 | 20:22 |
| 3 may | 5:00 | 6:22 | 12:44 | 17:15 | 19:21 | 20:24 |
| 4 may | 4:58 | 6:20 | 12:44 | 17:16 | 19:22 | 20:25 |
| 5 may | 4:56 | 6:19 | 12:44 | 17:16 | 19:23 | 20:26 |
| 6 may | 4:54 | 6:17 | 12:43 | 17:17 | 19:24 | 20:27 |
| 7 may | 4:52 | 6:16 | 12:43 | 17:18 | 19:25 | 20:28 |
| 8 may | 4:51 | 6:14 | 12:43 | 17:18 | 19:26 | 20:30 |
| 9 may | 4:49 | 6:12 | 12:42 | 17:19 | 19:27 | 20:31 |
| 10 may | 4:47 | 6:11 | 12:42 | 17:20 | 19:28 | 20:32 |
| 11 may | 4:45 | 6:09 | 12:42 | 17:20 | 19:29 | 20:33 |
| 12 may | 4:43 | 6:08 | 12:42 | 17:21 | 19:30 | 20:35 |
| 13 may | 4:41 | 6:06 | 12:41 | 17:22 | 19:31 | 20:36 |
| 14 may | 4:40 | 6:05 | 12:41 | 17:22 | 19:32 | 20:37 |
| 15 may | 4:38 | 6:03 | 12:41 | 17:23 | 19:33 | 20:39 |
| 16 may | 4:36 | 6:02 | 12:41 | 17:23 | 19:34 | 20:40 |
| 17 may | 4:34 | 6:00 | 12:40 | 17:24 | 19:36 | 20:41 |
| 18 may | 4:32 | 5:59 | 12:40 | 17:25 | 19:37 | 20:42 |
| 19 may | 4:31 | 5:57 | 12:40 | 17:25 | 19:38 | 20:44 |
| 20 may | 4:29 | 5:56 | 12:40 | 17:26 | 19:39 | 20:45 |
| 21 may | 4:27 | 5:54 | 12:39 | 17:27 | 19:40 | 20:46 |
| 22 may | 4:25 | 5:53 | 12:39 | 17:27 | 19:41 | 20:48 |
| 23 may | 4:24 | 5:51 | 12:39 | 17:28 | 19:42 | 20:49 |
| 24 may | 4:22 | 5:50 | 12:39 | 17:28 | 19:43 | 20:50 |
| 25 may | 4:20 | 5:49 | 12:39 | 17:29 | 19:44 | 20:52 |
| 26 may | 4:18 | 5:47 | 12:39 | 17:30 | 19:45 | 20:53 |
| 27 may | 4:17 | 5:46 | 12:38 | 17:30 | 19:46 | 20:55 |
| 28 may | 4:15 | 5:44 | 12:38 | 17:31 | 19:47 | 20:56 |
| 29 may | 4:13 | 5:43 | 12:38 | 17:31 | 19:48 | 20:57 |
| 30 may | 4:12 | 5:42 | 12:38 | 17:32 | 19:50 | 20:59 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Qanunları pozanlar edam oluna bilər



Səudiyyə Ərəbistanı bu il Azərbaycandan Həcc ziyarətinə gedəcək zəvvarlara xəbərdarlıq edib. Xəbərdarlıqda bildirilib ki, qaydaları pozanlar ölüm hökmünə də məhkum oluna bilər. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) verilən məlumata görə, zəvvarlarla imzalanan müqavilənin xüsusi müddəa bölümünün 4.7-ci bəndində qeyd olunub ki, narkotik vasitələrin, spirtli içkilərin və təbliğat xarakterli ədəbiyyatların Səudiyyə Ərəbistanına gətirilməsi qəti qadağandır. Ölkəyə narkotik aparanlar ölüm hökmü (edam) cəzasına məhkum edilir. Bölümün 4.8-ci bəndində isə deyilir ki, buna görə təşkilatçı (QMİ) məsuliyyət daşımır.

Qeyd edək ki, aprelin 1-dən Azərbaycanda Həcc ziyarətinə sənəd qəbulu başlayıb. Bu il Azərbaycandan gedəcək zəvvarlar üçün say limiti ötən ilkindən az - 1500 nəfər müəyyənləşib.

# Cins paltar qadağan edildi



Qəribə qadağaları ilə daim diqqət mərkəzində olan Şimali Koreya hökuməti daha bir gözlənilməz addım atıb. Belə ki, ölkədə yaşayan sakinlərə cins geyinmək və pirsinq taxmaq rəsmən qadağan olunub. Bu addım şimali koreyalıların qərb tərzində geyinməsinin qarşısını almaq məqsədilə atılıb.

Qadağaya riayət edilməsinə özəlliklə Çin sərhədində yerləşən Ryanggang və Şimali Hamgyon bölgələrində ciddi nəzarət edilir. Ölkə rəhbərliyi bunu Çinə yaxın olan həmin bölgələrin qərb dəbindən daha tez təsirlənmək ehtimalının olması ilə əsaslandırıb.

# *Bütün Amerika bu kitabı oxuyur*

Amerikada yeni nəşrdən çıxan "The Study Quran" (Quranın Tədqiqi) kitabı böyük populyarlıq qazanıb. Buna səbəb kitabın müəllifi - 83 yaşlı İran əsilli din alimi, Corc Vaşinqton Universitetinin professoru Seyid Hüseyn Nasirin Quranı yeni, geniş təfsirdə Amerika cəmiyyətinə təqdim etməsidir.




Kitabın müəllifləri hesab edirlər ki, islamafobiyanın mövcud olduğu ABŞ-da sözügedən kitab İslam dinini Amerika cəmiyyətinə doğru şəkildə çatdırmaqda kömək olacaqdır. Müəlliflər həm də nəşrləri ilə İŞİD qruplaşmasının müqəddəs kitabdan öz çirkin əməllərində istifadə etməsinin qarşısını almağa çalışırlar.

Qiyməti 70 dollar olan kitab hazırda ən çox alınan kitablar sırasındadır.

## NO COMMENT



Bütün dünyada sülh, sevgi və həmrəylik üçün dua edən 100 min buddist rahib

## Yadigar söz

**Nizami Gəncəvi**
*(mütəfəkkir, şair)*

**Kin ilə, sülh ilə sınanmış cahan,**
**Sülhündən xeyir olmuş, kinindən ziyan.**

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894